AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyası.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№ 31 (1376), 24 - 30 iyul 2018-ci il

Qəzet 2001-ci ildən çıxır.



## İkinci beynəlxalq həmrəylik tennis çempionatının açılış mərasimi keçirilib

İyulun 23-də Bakıda ikinci beynəlxalq həmrəylik tennis çempionatının açılış mərasimi keçirilib. Açılış mərasimində əvvəlcə iştirakçı ölkələrin paradı olub. Sonra Azərbaycan Respublikasının dövlət himni səsləndirilib. Rəsmi açılış mərasimində Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti və Bakı-2018 Yerli Əməliyyat Komitəsinin sədri Çingiz Hüseynzadə, Gənclər və İdman nazirinin müavini İsmayıl İsmayılov, İslam Həmrəylik İdman Federasiyasının baş katibi Mohammed Saleh AL-Qarnas və digər rəsmilər iştirak ediblər. Ölkəmizin irimiqyaslı idman tədbirlərinə uğurla ev sahibliyi etdiyini vurğulayan MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə bildirib ki, bu turnir 2017-ci ildə Bakıda təşkil edilmiş IV İslam Həmrəyliyi Oyunlarının irsi kimi keçirilir. Sevindirici haldır ki, yarış həm də gələn il Bakının ev sahibliyi edəcəyi Avropa Yeniyetmələrinin Yay Olimpiya Festivalının ilk test tədbiridir. "Həmrəylik" devizi altında keçirilən çempionatda 15 ölkədən 70-ə yaxın idmançı, məşqçi və qonaq iştirak edir. Əminəm ki, bütün qonaqlarımız, xüsusilə çempionat çərçivəsində Bakıya ilk dəfə səfər edənlər Azərbaycandan unudulmaz və xoş xatirələrlə ayrılacaqlar.

(ardı 2-ci səhifədə)

## "Bakı-2019" XV Avropa Gənclər Yay Olimpiya Festivalının loqosu təqdim olunub

İyulun 21-də gələn il Bakıda keçiriləcək XV Avropa Gənclər Yay Olimpiya Festivalına rəsmi gerisayım başlayıb. Bununla əlaqədar "Bakı-2019" Avropa Gənclər Olimpiya Festivalının (AGOF) Təşkilat Komitəsi tərəfindən turnirin rəsmi loqosu təqdim edilib.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən "Olimpiya dünyası" qəzetinə verilən məlumata görə,"Leo Burnett" brend agentliyinin dizaynerlərindən ibarət yerli heyətin tərtib etdiyi loqo dostluq, ədalətli oyun və tolerantlıq ruhunu gücləndirən müasir, dinamik və çevik brendi əks etdirir. Brendin əsas məqsədi beynəlxalq idman yarışlarına ev sahibliyi edən ölkənin, şəhərin qədim mədəniyyətini, tarixini əks etdirmək, eyni zamanda, gələn il təşkil olunacaq idman yarışının bundan əvvəlkilərlə müqayisədə fərqini nümayiş etdirmək və milyonlarla insanı bir araya gətirən idman tədbirində "Bax və hiss et!" şüarını nümayiş etdirməkdir.

Bakının irs və mədəniyyətini (od və qədim Azərbaycan naxışı olan butanı), birlik və dostluq konsepsiyalarını özündə ehtiva edən loqo, eyni zamanda, Azərbaycan paytaxtının möhtəşəm müasir memarlıq nümunələrini (Alov qülləri və Heydər Əliyev Mərkəzini) təsvir edir. Parlaq rəngləri canlandıran bu loqo yarışlara qatılacaq hər bir iştirakçının müsbət enerjisi və Bakının çoxşaxəli gözəlliyini təsvir etdirən əhatəli çalarlar palitrasından ibarətdir.

Baku 2019
EUROPEAN YOUTH OLYMPIC FESTIVAL

Azərbaycanın gənclər və idman naziri, "Bakı-2019" Təşkilat Komitəsinin sədr müavini Azad Rəhimov bildirib: "Təqdim etdiyimiz bu loqo Azərbaycan mədəniyyətinin təzahürü olmaqla yanaşı, Avropa Olimpiya Hərəkatının əsl ruhunu və bütün dünyanı ilhamlandıran, milyonlarla insanı bir araya gətirməyi bacaran idman mübarizəsini əks etdirir. Böyük idman ənənəsi olan, bir çox mötəbər yarışlara yüksək səviyyədə ev sahibliyi edən Azərbaycan Avropanın gənc atletlərini Bakıda salamlamağı səbirsizliklə gözləyir".



**Yeniyetmələrin III Yay Olimpiya Oyunlarına 73 gün qalır**

*Olimpiya Hərəkatı və idmanın inkişafında kütləvilik əsas şərtdir*

Səh. 7

## Stolüstü tennis üzrə komandamız Avropa çempionatının qalibidir

***Rumıniyanın Kluj-Napoka şəhərində gənclər arasında stolüstü tennis üzrə Avropa çempionatı keçirilir.***

***Yarışda 44 ölkədən 42 kişi və 39 qadın komandası mübarizə aparır.***

Çempiontda ölkəmizi Mixayıl Timofeyevin rəhbərliyi altında 10 tennisçi təmsil edir. Qızlardan ibarət yığmamız 1/4 finalda Almaniya yığmasına, yarımfinalda isə Fransa millisinə qalib gələrək finala vəsiqə qazanıb. Komandamız həlledici görüşdə Rusiya yığması ilə qarşılaşıb. Millimiz finalda Rusiya komandasına da qalib gələrək qızıl medala layiq görülüb. Bu, Azərbaycan stolüstü tennis tarixində ən yüksək nəticədir.

Xatırladaq ki, 2017-ci ildə keçirilən stolüstü tennis üzrə gənclər arasında Avropa çempionatında qızlardan ibarət yığmamız komanda hesabında III yeri tutaraq bürünc medal qazanmışdı. Şəxsi yarışlarda isə tennisçimiz qızıl medala sahib çıxmışdı.

Şəxsi yarışlarla davam edən qitə birinciliyinə bu gün yekun vurulacaq.



## Anons

*Ağırlıqqaldıranlarımız Milanda uğurla yarışırlar*

Səh. 2

Cüdoçularımız Çexiyadan 9 medalla qayıdırlar

## Olimpizm

### Tokio-2020 Olimpiadasının talismanları əbədi gələcəyi tərənnüm edir

2020-ci ildə Yaponiyanın Tokio şəhərində keçiriləcək XXXII Yay Olimpiya Oyunlarının talismanları əbədi gələcəyi tərənnüm edir. Bu barədə Təşkilat Komitəsinin rəsmi saytında məlumat verilib.

Olimpiadanın talismanları "Miraytova" adını alıblar. Miraytova yapon dilində "miray" ("gələcək") və "tova" (əbədi) sözlərinin birləşməsindən yaranıb. Talisman Tokio-2020 Olimpiadasının emblemini əks etdirən mavi-ağ qəfəslərdə verilib. Tokio-2020 Paralimpiya Oyunlarının simvolu isə ağ-çəhrayı qəfəslərdə verilib və "Someyti" adlanır. Bu, sakuranın ən populyar sortunun adıdır və ingilis dilində "so mighty" (belə əzəmətli) sözü ilə həmahənglik təşkil edir.



Talismanlar ictimaiyyətə fevral ayında təqdim olunub və onu Yaponiyanın bütün kiçikyaşlı məktəbliləri seçiblər.

Tokio-2020 Yay Olimpiadası iyulun 24-dən avqustun 9-dək keçiriləcək. Paralimpiya Oyunları isə 25 avqust- 6 sentyabr tarixlərində təşkil ediləcək.

### Pekin-2022 Olimpiadasının proqramına yeni idman növləri daxil edilib

Beynəlxalq Olimpiya Komitəsi (BOK) İcraiyyə Komitəsinin qərarı ilə 2022-ci ildə Pekində keçiriləcək



XXIV Qış Olimpiya Oyunlarının proqramına 6 yeni idman növü daxil edilib.

Pekin-2022 Olimpiadasının proqramına xizək akrobatikası və tramplindən tullanma üzrə qarışıq komanda yarışları, kişilər və qadınlar arasında fristay idman növü üzrə "biq eyr" növü, şort-trekdə qarışıq estafet, qarışıq snoubord-kross və qadınlar arasında bobsley yarışları ilk dəfə nümayiş etdiriləcək. Əvəzində isə qadınlar arasında xizək ikinövçülüyü, sinxron fiqurlu konkisürmə və kirşə idmanının altı növü yarışların proqramından çıxarılıb.

BOK-un qərarı ilə Pekin-2022 Qış Olimpiadasında ümumilikdə, 2892 idmançı mübarizə aparacaq.

### Afrikanın dörd ölkəsi Yeniyetmələrin Yay Olimpiya Oyunlarının keçirilməsinə namizəddir

Beynəlxalq Olimpiya Komitəsinin (BOK) İcraiyyə Komitəsi 2022-ci ildə Yeniyetmələrin Yay Olimpiya Oyunlarının keçirilməsinə Afrikadakı namizəd ölkələrin adlarını açıqlayıb.




Botsvana, Nigeriya, Seneqal və Tunis Gənclərin Dördüncü Yay Olimpiya Oyunlarını qəbul etmək niyyətlərini təsdiqləyiblər.

BOK-un qiymətləndirmə komissiyası iyun ayında bu ölkələrin milli olimpiya komitələri ilə görüşlər keçirib. Ekspertlər hər bir namizəd ölkənin idman infrastrukturu, iri yarışlar keçirmək təcrübəsi, gənclər və idman siyasəti ilə tanış olublar.

2018-ci ilin sentyabrında qiymətləndirmə komissiyası Afrika ölkələrində Yeniyetmələrin Olimpiya Oyunlarının keçirilməsinin dəqiqləşdirilmiş texniki-iqtisadi əsaslandırmasını təqdim edəcək. 2022-ci il Olimpiadasının ev sahibi bu ilin oktyabrında BOK-un Buenos-Ayres sessiyasında seçiləcək.

Qeyd edək ki, Yeniyetmələrin 2018-ci il Yay Olimpiya Oyunları oktyabrın 6-18-də Buenos-Ayresdə keçiriləcək.

# İkinci beynəlxalq həmrəylik tennis çempionatının açılış mərasimi keçirilib

(əvvəli 1-ci səhifədə)



İslam Həmrəyliyi İdman Federasiyasına (İHİF) da xüsusi təşəkkürlərini bildirən Çingiz Hüseynzadə İHİF-in ötən il Bakıda uğurla keçirilən IV İslam Həmrəyliyi Oyunlarının təşkilində, İslam irsinin yaşadılmasında və təbliğində MOK-a dəstəyini yüksək qiymətləndirib.

Gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov Azərbaycanın dünyada idman ölkəsi kimi tanındığını qeyd edərək respublikamızda idmana göstərilən dövlət qayğısından danışıb. Bildirib ki, ölkəmizdə uğurlu idman siyasətinin təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Hazırda bu diqqət və qayğı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurlu davam etdirilir. "İdmançılarımız ölkəmizi beynəlxalq arenada layiqincə təmsil edir və üçrəngli bayrağımızı dalğalandırırlar. İrimiqyaslı idman yarışlarına yüksək səviyyədə ev sahibliyi edən Azərbaycan beynəlxalq idman qurumları tərəfindən ciddi tərəfdaş kimi qəbul olunur. Ötən il təşkil olunan IV İslam Həmrəyliyi Oyunları da bu uğurlu silsilənin davamı oldu. Ölkəmizdə beynəlxalq idman yarışları təkcə paytaxtda deyil, regionlarda da keçirilərək Azərbaycanda idmanın kütləviləşməsinə yeni imkanlar açır", - deyə İsmayıl İsmayılov əlavə edib.

İslam Həmrəyliyi İdman Federasiyasının baş katibi Mohammed Saleh Al-Qarnas çempionatın iştirakçılarını salamlayaraq yarışın dostluq və həmrəyliyi təcəssüm etdirdiyini diqqətə çatdırıb. Qeyd edib ki, idman dünyada sülhün tərənnümüdür. Hazırda Bakıda təşkil olunan bu yarışda idmançılar arasında dostluq münasibətlərinin inkişafına, İslam dəyərlərinin və fəlsəfəsinin təbliğinə yönəlib. Azərbaycana bu dəfəki səfərindən də çox məmnunluğunu bildirən Mohammed Saleh Al-Qarnas xalqımızın qonaqpərvərliyini və mehribanlığını xüsusi vurğulayıb.

İştirakçılara uğurlar arzulayan beynəlxalq qurumun rəsmisi yarışların gərgin idman mübarizəsi şəraitində keçəcəyinə və tennisçilərin baxımlı oyun nümayiş etdirəcəklərinə əminliyini ifadə edib.

İyulun 27-dək davam edəcək yarışda Azərbaycan tennisçiləri ilə yanaşı, Albaniya, Bəhreyn, Belarus, İraq, Qırğızıstan, Maldiv adaları, Mozambik, Rusiya, Səudiyyə Ərəbistanı, Liviya, Seneqal, Tacikistan, Türkiyə və Uqandanı təmsil edən 100-ə yaxın tennisçi birincilik uğrunda mübarizə aparır. Yarışda hər bir ölkəni 3-5 nəfərdən ibarət komanda təmsil edir.




Çempionat MOK ilə İHİF arasında imzalanan memorandum əsasında təşkil olunub. Memorandum Bakı-2017 IV İslam Həmrəyliyi Oyunlarının irsini davam etdirmək, İslam mədəniyyətini və idmanı gənclərə aşılamaq məqsədilə imzalanıb. Hədəf İHİF-ə üzv ölkələrin idmançıları arasında İslam həmrəyliyini möhkəmləndirmək, idmanda İslam şəxsiyyətini zənginləşdirmək, ən yüksək idman dəyərləri və prinsiplərini qoruyub saxlamaq, müsəlman ölkələrində idman və Olimpiya Hərəkatını, gənclər arasında birlik və qardaşlığı təbliğ etməkdir.

Bakı Tennis Akademiyasında təşkil olunan çempionata 14 və daha yuxarı yaş kateqoriyasına aid idmançılar iştirak edirlər. Tennisçilər 4 qrup üzrə yarışırlar.

## Ağırlıqqaldıranlarımız Milanda uğurla yarışırlar

İyulun 22-də İtaliyanın Milan şəhərində 15 və 17 yaşınadək yeniyetmə oğlan və qızlar arasında ağırlıqqaldırma üzrə Avropa birinciliyi start götürüb. Dünyanın 40-dək ölkəsindən 388 atletin (169 qız və 219 oğlan) iştirak etdiyi turnir, həmçinin Argentinanın paytaxtı Buenos-Ayresdə təşkil olunacaq Yeniyetmələrin III Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyır. Milandakı birincilikdə Azərbaycan yığma komandası da iştirak edir. Yarışın ilk günündə millimizin üzvlərindən dördü körpücük üzərinə çıxaraq qüvvəsini sınayıb.

Yaşı 15-ə qədər olan qızların yarışında Günel Muxtarlı 44 kq çəki dərəcəsində toplam 97 kq (42+55) nəticə ilə 6-cı, Selcan Qarayeva isə 48 kq çəki dərəcəsində toplam 116 kq (50+66) nəticə ilə 7-ci yeri tutub.

Oğlanların yarışında isə nəticələr bir qədər fərqli olub. Elvin Şükürzadə 15 yaşınadək oğlanlar arasında 50 kq çəki dərəcəsində qüvvəsini sınayıb. Atletimiz birdən qaldırma hərəkətində hər üç yanaşmanı uğurla yerinə yetirib və 78 kq nəticə ilə bu hərəkətdə Avropa birinciliyinin kiçik gümüş medalçısı adını qazanıb. Təkanla qaldırma hərəkətində Elvin 95 kq çəkinin öhdəsindən gələ bilib. O, bu hərəkətdə 6-cı olub. Toplam 173 kq (78+95) nəticə ilə Elvin Şükürzadə Avropa birinciliyinin yekun sıralamasında 4-cü yeri tutub. Onu medaldan cəmi 1 kq ayırıb.

17 yaşınadək oğlanların yarışında ölkəmizi 50 kq çəki dərəcəsində çıxış edən Ömər Cavadov təmsil edib. Atletimiz möhtəşəm çıxış nümayiş etdirib. O, birdən qaldırma hərəkətində hər üç yanaşmanı uğurla yerinə yetirib və 88 kq nəticə göstərib. O, bütün rəqiblərini üstələyib və bu hərəkətdə qızıl medal qazanıb. Ömər uğuru təkanla qaldırma hərəkətində də davam etdirib. Atletimiz bu dəfə 102 kq-ı ram edərək bu hərəkətdə Avropa ikincisi olub.




Toplam 190 kq (88+102) nəticə göstərən Ömər Cavadov yekun sıralamada da Avropa birinciliyinin qalibi adını qazanıb.

İyulun 23-də Azərbaycan yığma komandasının üzvlərindən daha ikisi körpücük üzərinə çıxıb. Fuad Həsənov və Elşən Məmmədov 15 yaşınadək oğlanların mübarizəsində 56 kiloqram çəki dərəcəsində qüvvələrini sınayıblar. Fuad Həsənov birdən qaldırma hərəkətində 92 kiloqramlıq nəticə ilə ikinci yeri tutub. Atletimiz təkanla qaldırmada 110 kiloqramın öhdəsindən gələrək bu hərəkətdə də gümüş medala sahib olub. Fuad Həsənov toplam 202 kiloqram (92+110) nəticə ilə Avropa birinciliyinin yekun sıralamasında da gümüş medal qazanıb.

Ötən il Kosovonun paytaxtı Priştinada keçirilən Avropa birinciliyində bürünc medal qazanan Elşən Məmmədov isə bu dəfə fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Atletimiz birdən qaldırmada 98 kiloqram nəticə göstərib və bu hərəkətdə bütün rəqiblərini üstələyib. Elşən təkanla qaldırma hərəkətində də qızıl medal qazanıb. O, bu hərəkətdə 114 kiloqram nəticə ilə Avropanın ən yaxşısı adına layiq görülüb. Elşən Məmmədov toplam 212 kiloqram (98+114) nəticə ilə Avropa birinciliyinin yekun sıralamasında da fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Beləliklə, bu çəki dərəcəsində iki atletimiz 3 qızıl və 3 gümüş medal qazanaraq çempionatda birinci yeri tutub.

## Bakı Olimpiya Stadionu qırmızı rəngə boyanıb

Xüsusi Olimpiya (Special Olympics) Hərəkatın yaradılmasının 50 illik yubileyi münasibətilə iyulun 20-də saat 21:30-da Bakı Olimpiya Stadionu qırmızı rəngə boyanıb. Azərbaycan Xüsusi Olimpiya Hərəkatının "İnklüzivlik üçün binaların işıqlandırılması" təşəbbüsündə fəal iştirak edir. Əlamətdar gün münasibətilə Azərbaycan ilə yanaşı, dünyanın müxtəlif ölkələrində simvolik memarlıq abidələri qlobal birliyin rəmzi kimi qırmızı rəngə boyanıb.

Xüsusi Olimpiya Hərəkatının missiyası əqli əlilliklərə malik insanlara qarşı ayrı-seçkiliyə son qoymaq və inklüziv cəmiyyətlər formalaşdırmaqdır.

"Əqli əlilliklərə malik insanların harada yaşamasından asılı olmayaraq, onlarla bağlı məlumatlılığın artırılmasına göstərilən böyük dəstəyə görə minnətdarıq. İnklüzivlik naminə binaların işıqlandırılması Xüsusi Olimpiya Hərəkatının missiyasının davam etdirilməsinin və təkmilünün rəmzidir", - deyə Xüsusi Olimpiya Təşkilatının rəhbəri Timoti Şiver deyib.

"CIBC Fire Pitch" və "Toyota Park" meydançalarında təşkil olunub. Bu kubokda əqli əlillikləri olan və olmayan idmançılar birlikdə yarışıblar. İyulun 20-də dünyanın müxtəlif ölkələrindən gəlmiş hüquq mühafizə orqanlarının əməkdaşları və əlil idmançılar məşəl qaçışında iştirak ediblər. Dörd millik (6436 metr) qaçış ilk Xüsusi Olimpiya Oyunlarının keçirildiyi "Soldier Field" abidəsinin yaxınlığında "Əbədi ümid məşəli"nin alovlandırılması mərasimi ilə yekunlaşıb. Təntənəli tədbirlərin sonunda Xüsusi Olimpiya Təşkilatı idman və əyləncəli oyunlardan, sərgilərdən ibarət, eləcə də milli yeməklərin nümayiş olunduğu ailəvi qlobal inklüzivlik günü bayramını təşkil edib.

"Xüsusi Olimpiya" hərəkatının 50 illik yubiley tədbirləri Azərbaycanda da davam edir. Sentyabrda Bakı Xüsusi Olimpiya Qlobal Gənc Liderlər Forumuna ev sahibliyi edəcək. Azərbaycan da daxil olmaqla 30 ölkəni təmsil edən 30-dan artıq gənc və yaşlı liderlər sentyabrın 24-dən 28-dək Bakıda toplaşacaqlar. Forum "Xüsusi Olimpiya" şüarı altında gənclərin aparıcı rol oynayacağı sosial layihələrin yeni erasının əsasını qoyacaq.

Azərbaycan hökumətinin dəstəyi ilə keçiriləcək forum iştirakçılara öz ölkələrində daha inklüziv icmalar formalaşdırmaq üçün təlim verəcək və imkanlar yaradacaq. Forumun keçirilməsi haqqında qərar cari ilin aprelində gənclər və idman naziri Azad Rəhimov və Xüsusi Olimpiya Təşkilatının Avropa və Avrasiya üzrə prezidenti və icraçı direktoru David Evangelistanın iştirakı ilə keçirilən imzalanma mərasimində elan olunub.



Dünyada 100-dən artıq bina bu təşəbbüsdə iştirak edir, tolerantlıq və fərqliliklərə hörməti təcəssüm etdirir. Bu təşəbbüsə ABŞ və Kanadada Niaqara şəlaləsi, Mexikodakı "Müstəqillik mələyi" abidəsi, Pekində "Su Kub"u da qoşulub.

İnklüzivlik naminə binaların işıqlandırılması təşəbbüsü iyulun 17-21-də Xüsusi Olimpiya Təşkilatının 50 illiyi münasibətilə Çikaqoda keçirilən yubiley tədbirlərinin bir hissəsidir. Çikaqo 1968-ci ilin iyulunda ilk dəfə keçirilmiş Beynəlxalq Xüsusi Olimpiya Yay Oyunlarına ev sahibliyi edib.

Xüsusi Olimpiya idmançıları, məşqçiləri, azarkeşləri və məşhurları sevinc, cəsarət və hüquqlarının təntənəsi olan 50-ci yubiley mərasimlərində iştirak etmək üçün Çikaqoda toplaşıblar.

"Toyota" şirkəti tərəfindən təqdim olunacaq ilk vahid futbol kubokunun təqdimatı

Eyni zamanda, növbəti Xüsusi Olimpiya Yay Oyunları gələn il martın 14-21-də Əbu-Dabidə keçiriləcək. Dünyanın 170-dən artıq ölkəsini təmsil edən 7 mindən artıq xüsusi olimpiya idmançısı bu yarışda iştirak edəcək.

Xüsusi Olimpiya əqli əlillikləri olan insanlara qarşı ayrı-seçkiliyə son qoymaq və onları səlahiyyətləndirmək məqsədilə idman, səhiyyə, təhsil və liderlik proqramlarının istifadə olunduğu qlobal inklüzivlik hərəkatıdır. 1968-ci ildə təsis olunan hərəkat 170-dən artıq ölkədə 5 milyon atleti və tərəfdaşı əhatə edir. Xüsusi Olimpiya Hərəkatı bir milyondan artıq məşqçinin və könüllünün dəstəyi ilə il ərzində Olimpiya Oyunları formatında 32 yarış və 108 min oyun və müsabiqə təşkil edir.

***İyulun 20-22-də Türkiyənin İstanbul şəhərində Vehbi Emrenin xatirəsinə həsr olunan yunan-Roma güləşi üzrə reytinq xarakterli beynəlxalq turnir keçirilib. Yığmamızın üzvləri turniri 5 (1 qızıl, 1 gümüş və 3 bürünc) medalla başa vurublar.***




## Vehbi Emrenin xatirəsinə həsr olunan beynəlxalq turnir başa çatıb

Yığmamızın üzvü Taleh Məmmədov (63 kq) keçirdiyi bütün görüşləri qələbə ilə başa vuraraq turnirin qızıl medalını qazanıb. Yalnız final görüşündə uduzan İslam Abbasov (87 kq) gümüş medalla kifayətlənib. Bürünc medalları isə yığmamıza Sakit Quliyev (60 kq), Kamran Məmmədov (67 kq) və Elvin Mürsəliyev (82 kq) qazandırıblar.

Bu nəticə ilə yığmamız komanda hesabında Türkiyə və Belarusdan sonra üçüncü yeri tutub. Görüşlərin idarə edilməsində ölkəmizi beynəlxalq dərəcəli hakim Asif Şirəliyev təmsil edib.

## *Cüdoçularımız Çexiyadan 9 medalla qayıdırlar*

Çexiyanın paytaxtı Praqada gənc cüdoçular arasında Avropa kuboku yarışı keçirilib. Yarışda 39 ölkədən 430 (280 oğlan, 150 qız) cüdoçu qüvvəsini sınayıb. Qitə turnirdə Azərbaycan millisi 17 (12 oğlan, 5 qız) cüdoçu ilə təmsil olunub. Turnirin ilk günü millimiz üçün uğurlu olub. Belə ki, təmsilçilərimiz 2 qızıl, 2 gümüş və 4 bürünc medal qazanıblar. Rövşən Əliyev (55 kq) və Şəfəq Həmidova (44 kq) bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Balabəy Ağayev (55 kq) və Yaşar Nəcəfov (60 kq) Avropa kubokunun gümüş medallarına yiyələniblər. Tofiq Məmmədov (60 kq), Nurlan Osmanov (66 kq), Ramilə Əliyeva (44 kq) və Gültac Məmmədəliyeva (52 kq) isə bürünc medal qazanıblar.

Yarışın sonuncu günündə komandamız aktivinə daha bir medal yazdırıb.

81 kq çəki dərəcəsində ölkəmizi təmsil edən Murad Fətiyev yalnız final qarşılaşmasında üstünlüyü əldən verərək



Avropa kubokunun gümüş medalına sahib olub. Bununla da, cüdoçularımız yarışı 2 qızıl, 3 gümüş və 4 bürünc medalla başa vurub. Komandamız bu nəticə ilə ümumi medal sayında ikinci yeri tutub.

## Velosipedçimiz Belçikada çempion oldu

Elit yığmasının və "Baku Cycling Project" kontinental komandasının üzvü Kiril Pozdnyakov Belçikada keçirilən nüfuzlu "Dentergem" turunun qalibi olub. 169,6 km-dən ibarət olan və 110 velosipedçinin iştirak etdiyi birgünlük yarış təmsilçimizin solo-finişi ilə yadda qalıb.

Bu ilin iyununda keçirilən Azərbaycan çempionatının qalibi olmuş Kiril Pozdnyakov çempion köynəyi ilə mübarizə apardığı ilk yarışda məsafəni 3 saat, 45 dəqiqə, 30 saniyəyə başa vurub və ən yaxın izləyicisini 11 saniyə qabaqlayıb.

Qeyd edək ki, 1954-cü ildən etibarən təşkil edilən "Dentergem" turu Belçikanın ən nüfuzlu yarışlarından sayılır və müxtəlif illərdə planetin ən güclü velosipedçiləri bu yarışın qalib və mükafatçısı olub.

Unutsaq, unudularıq

*Azərbaycan mətbuatında özünəməxsus dəsti-xətti olan, peşəkar jurnalistlər kifayət qədərdir. Müasir qələm sahibləri yazmağı, yaratmağı, bu peşənin incəliklərini ustadlardan öyrənirlər. Belə ustadlardan biri də Azərbaycan idman jurnalistikasının banilərindən olan1950-ci ildən 1987-ci ilədək "İdman" qəzetinə rəhbərlik etmiş, tanınmış qələm sahibi, Əməkdar jurnalist, Prezident təqaüdçüsü, Mirpaşa Miriyev idi.*

*Ölkənin idman jurnalistikası tarixində öz savadı, analitik biliyi, istedadı və qayğıkeşliyi ilə milyonların rəğbətini qazanan Mirpaşa Miriyevin ruhu qarşısında baş əyirik!. Milli Mətbuat Günü münasibətilə Mirpaşa müəllimin əziz xatirəsini yad etmək üçün onun sevimli qızı Ulduz Miriyeva ilə redaksiyada görüşdük.*

# "Mirpaşa Nuriyev peşəkar idman jurnalisti, gözəl insan, yaxşı ata idi"



## "Onun anama və bizə kobud bir söz dediyini eşitməmişdim"

***- Ulduz xanım, atanızı necə xatırlayırsınız?***

- Atam haqqında çox danışa bilərəm. Onun haqqında ancaq xoş xatirələrim var. O, peşəkar idman jurnalisti, gözəl insan, yaxşı ata idi. Qohumlar, dostlar, tanışlar onu çox mədəni, təvazökar, alicənab insan kimi tanıyırdılar. Mən heç vaxt evdə onun anama və bizə kobud bir söz dediyini eşitməmişdim. Atamla anam hədsiz dərəcədə biri-birilərinə hörmət edirdilər. Bacımla mən onları daim anırıq. Xəyalımda tez-tez o günlərə qayıdıb, atamla anamın şirin söhbətlərini, xatirələrini yada salıram.

Mirpaşa Miriyev 1920-ci il iyunun 24-də Bakıda, İçərişəhərdə doğulub. Ailədə 6 uşaq olublar- 2 oğlan, 4 qız. Atam onların ən böyüyü olub və özündən balaca bacı, qardaşlarının orta və ali təhsil almalarında böyük köməklik göstərib. Babam vaxtından tez rəhmətə getdiyi üçün ailənin yükü atamın üstündə olub. Amma buna baxmayaraq öz təhsilini də yaddan çıxarmayıb.

Mirpaşa müəllm orta təhsilini 132 saylı orta məktəbdə alıb. Sonra sənədlərini Azərbaycan Dövlət Universitetinin filologiya fakultəsinin qiyabi şöbəsinə verib və qəbul olub. Universitetdə təhsil aldığı illərdə "Azərnəşr"də korrektor kimi çalışıb. Atam həmin dövrdə, həm də "Gənc işçi"qəzeti ilə əməkdaşlıq edib. Məqaləri redaksiya tərəfindən bəyənildiyiinə görə, sonra əmək fəaliyyətini burada davam etdirib. Bir sözlə, atam çox zəhmətkeş, səmimi, qayğıkeş insan idi.

***- İkinci Dünya Müharibəsi çoxları kimi Mirpaşa müəllimin də həyatında öz izini buraxıb?***

- İkinci dünya müharibəsi ilə əlaqədar olaraq ölkədə redaksiyaların çoxu bağlandı. Atamın işlədiyi "Gənc işçi" qəzeti də fəaliyyətini dayandırmalı oldu. Atam da daxil olmaqla, redaksiyanın üç işçisi cəbhəyə gedən işçiləri əvəz etmək üçün radio verilişləri komitəsinə göndərildi. Mirpaşa müəllim bir müddət "Azərbaycan gəncləri" qəzetində redaktor və redaktor müavini vəzifələrində çalışıb.

Atam "Azərbaycan gəncləri" qəzetində çalışarkən maraqlı yazıları ilə idman ictimaiyyətinin diqqətini cəlb edib. İdman sahəsinə yaxşı bələd olmağı onu 1950-ci ildə "Azərbaycan bədən tərbiyəçisi" və "Fizkulturnik Azerbaydjana" qəzetlərinə redaktor vəzifəsinə gətirib çıxarıb. Mirpaşa müəllim dərin zəkası, istedadlı qələmi və peşəkarlığı ilə bu qəzetlərə fasiləsiz olaraq 37 il rəhbərlik edib. Atam təqaüdə çıxandan sonra bir müddət "Neftçi" İdman-Sağlamlıq Mərkəzinin sədr müavini vəzifəsində çalışıb.

***- Bəs ananız yadınızda necə qalıb?***

- Anam ziyalı ailəsində dünyaya gəlib, əsilləri Oğuz rayondandır. Anamın atası Saleh Qazıyev Azərbaycanda arxeologiya elminin əsasını qoyanlardan biri olub. Anam Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirb. Cəfər Xəndan, Mikayıl Rəfili, Məmmədhüseyn Təhmasib, Əkrəm Cəfər kimi dahilərdən dərs alıb. Anam ali məktəbi əla qiymətlərlə bitirsə də, heç yerdə işləməyib. Ömrünü atama, bizə həsr edib.

## "Atam musiqini çox sevirdi"

***- Övladlarından heç biri Mirpaşa müəllimin yolunu davam etdirməyib?***

- Atam musiqini çox sevirdi. Muğamlarımızı, xalq mahnılarımızı həvəslə dinləyirdi. Özü də pianoda çalmağı bacarırdı. Onun arzusu məni musiqiçi görmək idi: "Ulduz, atamın imkanı olmadığından mənə musiqi təhsili verə bilməyib. Amma mən həmişə musiqi təhsili almaq arzusunda olmuşam. Arzum budur ki, sən musiqi müəllimi olasan".

***- Siz atanızın arzusunu yerinə yetirdiniz?***

- Bacım da, mən də 1 saylı 7 illik musiqi məktəbinin fortepiano şöbəsini bitirdik. Mən atamın arzusunu yerinə yetirdim, bacım Gülər isə həkimlik peşəsini seçdi. Asəf Zeynallı adına musiqi məktəbini bitirdikdən sonra 10 il 20 saylı musiqi məktəbində fortepianodan dərs dedim. Sonra isə təhsilimi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində davam etdirdim. Aktyorluq sənətinə böyük həvəsim var idi. Hazırda İncəsənət Gimnaziyasında "səhnə danışığı" və "aktyor sənəti" fənlərini tədris edirəm. 15 il burada şöbə müdiri kimi işləmişəm. 46 il əmək fəaliyyətim var. Pedaqogika üzrə fəlsəfə doktoruyam, istedadlı tələbələrim çoxdur. Onlardan Gənc Tamaşaçılar Teatrının aktyorlarından Elnur Hüseynovun, Elnur Kərimovun, Günel Məmmədovanın və başqalarının adlarını çəkə bilərəm. Tələbələrimdən Ceyhun Əli ATV telekanalında "Xəbərlər" proqramının aparıcısıdır.

***- 2007-ci il sizin ailənizə kədər və üzüntü gətirdi?***

- Həmin il beş ayın ərzində mənə əziz olan iki insanı- atamı və anamı itirdim. Təsəvvür edin, iyunun 12-də atam, noyabr ayının 12-də isə anam dünyasını dəyişdi. Anam atamın yoxluğuna cəmi 5 ay dözdü.

***- Maraqlıdır ki, Mirpaşa müəllim son müsahibəsini məhz "Olimpiya dünyası"na verib?***

- Bəli. Səhv etmirəmsə, bu müsahibə qəzetin 25-27 noyabr 2006-ci il tarixli nömrəsində getmişdi. Çox maraqlı müsahibə alınmışdı. Mirpaşa müəllim söhbətində Azərbaycanda idman jurnalistikasının tarixindən, ənənələrindən və eləcə də, problemlərindən danışmışdı. Onun dövründə qəzetlərdə daha çox tənqidi və təhlili materialların dərc edildiyini vurğulayan Mirpaşa müəllim bunu müasir jurnalistikanın problemlərindən biri kimi dəyərləndirirdi. Peşəkar jurnalist tövsiyə edirdi ki, idman jurnalistləri tənqidi və təhlili yazılara üstünlük versinlər, yazdıqları idman növlərini öyrənsinlər. Atam qəzetə verdiyi müsahibəsində müasir dövrdə ictimai-qəzetlərdə də idman xəbərlərinə geniş yer ayrılmasından məmnunluğunu ifadə edirdi.

***- Nəvələrindən Mirpaşa müəllimin yolunu davam etdirən varmı?***

- Təəssüf ki, xeyr. Mənim bir qızım, iki nəvəm var. (Gülür) Hamısı da qızlardır. Onların heç biri jurnalistika sahəsində çalışmır. Böyük nəvəm Bakı Dövlət Universitetinin hüquqşünaslıq fakültəsində oxuyur. Kiçik nəvəm 11-ci sinfi bu il bitirib, ali məktəbə qəbul imtahanlarını müvəffəqiyyətlə verib.

***- Ölkədə idman jurnalistlərinin yetişməsində Mirpaşa müəllimin böyük əməyinin olduğu danılmazdır...***

- "İdman" qəzetinin respublikada idman jurnalistlərinin yetişməsində böyük rolu vardır. Azərbaycan və rus dillərində nəşr olunan "İdman" və "Sport" nəşrləri çox populyar idi.

Atam qəzetin adı ilə bağlı xatirələrində danışırdı: "Bir gün məni Mərkəzi Komitəyə çağırdılar. Komitə nümayəndələrinin məndən qəzetin "Azərbaycan bədən tərbiyəçisi" adı xoşuna gəlirmi? sualına "xeyr" cavabını verdim. Belə olan halda qəzetin adını seçməyi mənə məsləhət gördülər.Mən "İdman" adını təklif etdim". Beləliklə, atamın təklifi ilə "Azərbaycan bədən tərbiyəçisi" qəzeti "İdman" adlanıb.

Mirpaşa müəllim idmanla məşğul olmasa da, bu sahəni yaxşı bilirdi.Məşqçinin təsadüfən dilindən qaçırdığı bircə kəlməsi ilə yarışın uğurlu olub-olmayacağını ustalıqla müəyyənləşdirirdi. Hansısa yarışın uğurlu olacağını hiss edəndə qəzetin müxbirini dünyanın lap o başına da göndərirdi.

***- Mirpaşa müəllim, həm də bir neçə kitabın müəllifidir.***

- Atam məqalələr yazmaqla bərabər, həm də yazıçılıq fəaliyyəti ilə məşğul olub. Onun "Dəmir qala", "Bir zavodun idmançıları", "Kənd idmançıları", "Çempionlar", "Birləşən yollar" və digər kitabları çapdan çıxıb. Atam Əməkdar jurnalist, Prezident təqaüdçüsü idi.



## "Atamın xatirəsinə ikinci kitabı yazmaq barədə düşünürəm"

***- Atanız haqqında kitab yazmaq fikri necə yarandı?***

- Atam haqda kitab yazmaq hər zaman fikrimdə olub. Arzularımda fikirləşdiyim kitab atamın ölümündən düz 5 il sonra yarandı. Bir dəfə tərəddüdlə atamın kabinetinə girdim. Ürəyimdə nisgil, ağrı və acı var idi. Sanki hər şey onun sağlığındakı kimi idi. Bu saat məni gülümsər üzü ilə salamlayacaq və məndən sakitcə soyumuş çayını dəyişməyi xahiş edəcəkdi... Gözlərim doldu. Qeyri-ixiyari yazı stolunun üstündəki yazıları və məqalələri oxumağa başladım. Gözlərimdən yaş süzülməyə başladı və o an mən atam haqqında kitab yazmaq qərarına gəldim. Düşündüm ki, bir övladı kimi mənim və həmkarlarının xatirələrini bir yerə toplamaq Mirpaşa müəllimin ruhunu şad edərdi. Bunları düşündüyüm an atamın işıqlı üzü, gülər siması gözlərim önündə canlandı. Atamın xatirəsinə yazdığım "Bizim təmkinli əzizimiz" adlı kitabı, bax beləcə, yarandı. Kitabın ərsəyə gəlməsində Gənclər və İdman Nazirliyinə, şəxsən nazir Azad Rəhimova minnətdarlığımı bildirirəm. Göstərdiyi dəstəyə görə "İdman" qəzetinin baş redaktoru Qabil Mehdiyevə təşəkkür edirəm.



***- İkinci kitab haqqında düşünürsünüzmü?***

- (fikirləşir) Əlbəttə, atamın xatirəsinə ikinci kitabı yazmaq barədə düşünürəm, özü də çox. Bu dəfəki kitabda Mirpaşa Miriyevin yazdığı məqalələri, oçerkləri bir yerə toplamaq istəyirəm.Sonra onun haqqında yazılan yazıları vermək istəyirəm bu kitabda.Bir də atamın bir bacısı həyatdadır, 80 yaşı var. Onun da atam haqqında xatirələrini bura daxil edəcəm.Artıq işə başlamışam.Ömür vəfa etsə, atamın yubileyində yeni kitabımı idman ictimaiyyətinə təqdim etmək istəyirəm.Mən atamın məqalələrini hələ sağlığında, gənc ikən yığırdım.Bu da atamın çox xoşuna gəlirdi.

***- Aqşin Kazımzadə atanızı həmişə özünə mənəvi ata bilib. Bu barədə nə deyə bilərsiniz?***

- Atam nəinki Aqşin Kazımzadənin, çoxlarının mənəvi atası idi. 1963-1993-cü illərdə "İdman" qəzetində redaktor müavini və baş redaktor Aqşin Kazımzadə Mirpaşa müəllimin əməyini hər zaman yüksək qiymətləndirirdi. Atam da ona bir istedadlı jurnalist kimi böyük dəyər verirdi.

Aqşin müəllim 24 il atamla bir yerdə işləmişdi və onları 35 illik dostluq telləri bağlayırdı. Çox yaxın idilər, sözləri-söhbətləri bir idi. Aqşin müəllim atamla bağlı xatirələrində yazır: "Əminəm ki, ikinci belə adam tapılmaz ki, redaksiya kollektivinə belə həssaslıqla yanaşsın və kollektivi belə idarə etsin. Çətin belə adam tapılar ki, əlinə yenicə qələm alan gəncə atalıq qayğısı göstərsin, onun qeydinə qalsın. Bir dfəf görmədim ki, o kiməsə acıqlansın və yaxud hirsini kiminsə üstünə töksün.Ucadan danışmaq, səsini qaldırmaq bu insanın təbiətinə zidd idi.

Mən aramızdakı dostluq münasibətlərinə baxmayaraq, onu heç vaxt adı ilə çağırmamışdım. O mənim və bir çoxları üçün Mirpaşa müəllim idi. Çünki o sözün əsl mənasında, müəllim adına layiq idi və həmişə də müəllim olaraq qalacaqdır. Mirpaşa müəllim təkcə mənim üçün yox, Azərbaycan idman jurnalistikası məktəbini keçənlər və keçməkdə olanlar üçün müəllim olaraq qalacaqdır".

***- Ulduz xanım, bu gün bizimlə birgə Mirpaşa müəllimi yada saldığınız üçün sizə təşəkkürümüzü bildiririk.***

- Mən də atamı yada saldığınız üçün Azərbaycan Milli Olimpiya Komitəsinə, "Olimpiya dünyası" qəzetinə öz minnətdarlığımı bildirirəm. İnsan hansı sahədə çalışmasından asılı olmayaraq özündən sonra bir iz qoyub getməlidir. Mən çox şadam ki, Mirpaşa müəllim Azərbaycan idman jurnalistikasında dərin iz qoyub gedib. Bu gün ölkə mətbuatında kifayət qədər savadlı, zəngin biliyə, dünyagörüşünə malik jurnalistlərin olması çox sevindiricidir. Çox istəyirəm ki, atam haqqında sənədli film çəkilsin, veriliş hazırlansın.

***Səadət Hakıyeva***

# Yığmamız Rusiyada 4-cü yerlə kifayətləndi



Rusiyanın Yekaterinburq şəhərində cüdo üzrə qarışıq komandalar arasında Avropa çempionatı keçirilib.

Yarışda ümumilikdə 21 ölkədən 166 (84 kişi, 82 qadın) cüdoçu mübarizə aparıb. Kişilər 73 kq, 90 kq, +90 kq, qadınlar 57 kq, 70 kq və +70 kq çəki dərəcələrində yarışıblar. Turnirdə Azərbaycan yığması da mübarizə aparıb. Çempionata Telman Vəliyev (73 kq), Tural Səfquliyev (90 kq), Uşanqi Kokauri, Şahin Qəhrəmanov (hər ikisi +90 kq), İçinxorlu Munxtsedev (57 kq), Aidə Baxışova, Günel Həsənli (hər ikisi 70 kq) və İrina Kindzerskadan (+70 kq) ibarət heyətlə yollanan millimiz 5 qarşılaşmada qüvvəsini sınayıb.

1/16 finalda Polşanı 4:2 hesabı ilə məğlub edən Azərbaycan cüdoçuları növbəti raundda Hollandiya ilə qarşılaşıb. Bu dəfə eyni hesablı qələbəyə rəqibimiz sevinib.

"Narıncılar" yarımfinala yüksəldiyi üçün komandamız təsəlliverici döyüşlərdə iştirak edib. Rumıniyanı 4:0, Avstriyanı 4:1 hesabı ilə məğlub edən millimiz bürünc medal uğrunda mübarizə şansı qazanıb.

Cüdoçularımız üçüncülük uğrunda meydan sahibi Rusiya ilə üz-üzə gəlib. Görüş rusların qələbəsi ilə nəticələnib - 4:0. Bununla da komandamız yarışı 4-cü pillədə başa vurub.

* * *

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı sayəsində Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) hərbi hissəsində hərbi qulluqçuların, o cümlədən əsgərlərin nümunəvi xidməti üçün hərtərəfli şərait yaradılıb. Hərbi hissədə xidməti-döyüş fəaliyyəti müvafiq qanunvericiliyin, habelə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nizamnamələrinin tələbləri əsasında təşkil olunur, hərbi qulluqçulara nəzəri-praktiki, sıra və fiziki hazırlıq dərsləri keçirilir, şəxsi heyətin peşəkarlıq vərdişləri real döyüş şəraitinə uyğunlaşdırılır. Həmçinin əsgərlər idmanın müxtəlif növləri üzrə məşğələlərdə hazırlaşır və DTX-nin struktur bölmələri arasında keçirilən yarışlarda müvəffəqiyyətlə iştirak edirlər.

Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, Azərbaycanın Milli Qəhrəmanı, general-leytenant, cüdo üzrə idman ustası Mədət Quliyev və Xidmətin məsul əməkdaşı, Olimpiya çempionu, beynəlxalq dərəcəli idman ustası Elnur Məmmədli hərbi hissənin idman kompleksində əsgərlər üçün cüdo üzrə növbəti ustad dərəcələri keçiblər.

Olimpiya dünyası






# Badmintonçularımız Nigeriyada bürünc medal qazanıblar

Badmintonçularımız Edi Reski Dviçayo və Ezmi Qovimuramadhoni Nigeriyada keçirilən “Lagos İnternational-2018” turnirində bürünc medal qazanıblar. Təmsilçilərimiz bu uğura qoşa yarışlarda nail olub.

Mübarizəyə 1/16 finaldan başlayan Edi - Ezmi cütü ilk mərhələdə nigeriyalı Yinkan İfraimu Bulus - İsaak Minaphi tandeminə 2:0 (21-8, 21-10) hesabı ilə qalib gəlib. Badmintonçularımız 1/8 finalda hindistanlı Vasanta Kumar - Asiz Surya cütünü də 2:0 (21-19, 22-20) hesabı ilə məğlub edib. Dörddəbir finalda badmintonçularımızın rəqibi malayziyalı Məhəmməd Hakim Lukman və Maldiv adalarını təmsil edən Hüseyn Zayandan ibarət tandem olub. Bu görüşdə də rəqiblərinə set verməyən Edi və Ezmi 2:0 (21-16, 21-12) hesabı ilə qələbə qazanıb. Badmintonçularımız yarımfinalda Hindistan idmançıları Vaibhaav və Ray Prakaş cütü ilə qarşılaşıblar. Təmsilçilərimiz bu görüşdə 0:2 (12-21, 20-22) hesabı ilə uduzsa da, yarımfinala vəsiqəni təmin etdiyindən çellenc seriyalı turnirin bürünc medallarına sahib çıxıblar.

Badmintonçularımızın şəxsi yarışlardakı göstəricilərinə gəldikdə isə Ezmi ilk mərhələdə nigeriyalı Folorunşo İlensami Opeyoriyə 2:0 (21-8, 21-10) hesabı ilə qalib gəlib. Təmsilçimiz ikinci görüşündə turnirin finalçısı Mohmed Misbuna 0:2 (12-21,13-21) hesabı ilə uduzub.

Yarışa əsas mərhələdən qatılan Edi Reski Dviçayo isə turnirə qələbə ilə başlayıb. Edi nigeriyalı Usman Ayo İsiaqı 2:0 (21-16, 21-13) hesabı ilə məğlub edib. Təmsilçimiz 1/8 finalda turnirin qalibi israilli badmintonçu Mişa Zilbermana uduzub. Görüş Zilbermanın 2:0 (21-17, 24-22) hesablı qələbəsi ilə başa çatıb.

## “Neftçi idman klubu” İB

# “Neftçi İdman Klubu”nun təmsilçiləri ilin birinci yarısında 673 medal əldə ediblər

“Neftçi İdman Klubu” İctimai Birliyi həmişə olduğu kimi, bu il də böyük uğurlara imza ataraq, liderliyini qorumaqdadır. Belə ki, idmançılarımız ilin ilk yarısında əldə etdikləri medalların sayına görə yenə də liderliyi əldən verməyiblər. Klubun yetirmələri ilin ilk altı ayı ərzində ölkədaxili və beynəlxalq səviyyəli yarışlarda əzmlə mübarizə apararaq, 205-i qızıl, 189-u gümüş və 279-u bürünc olmaqla, ümumilikdə 673 medala yiyələniblər. Təmsilçilərimiz dünya çempionatlarında 16 (4 qızıl, 5 gümüş, 7 bürünc), Avropa yarışlarında 33 (11 qızıl, 9 gümüş, 13 bürünc), beynəlxalq turnirlərdə isə 51 medal (13 qızıl, 18 gümüş, 20 bürünc) qazanıblar. Respublika səviyyəli yarışlarda 229 dəfə fəxri kürsüyə qalxan atletlərimiz (75 qızıl, 64 gümüş, 90 bürünc) paytaxt yarışlarında 198 (62 qızıl, 50 gümüş, 86 bürünc), digər yarışlarda isə 146 medala (40 qızıl, 43 gümüş, 63 bürünc) sahib olublar.

| *Yarışın adı* | *Qızıl medal* | *Gümüş medal* | *Bürünc medal* | *CƏMİ* |
|---|---|---|---|---|
| *1. Dünya çempionatları* | *4* | *5* | *7* | *16* |
| *2. Avropa çempionatları* | *11* | *9* | *13* | *33* |
| *3. Beynəlxalq turnirlər* | *13* | *18* | *20* | *51* |
| *4. Respublika yarışları* | *75* | *64* | *90* | *229* |
| *5. Bakı birincilikləri* | *62* | *50* | *86* | *198* |
| *6. Digər yarışlar* | *40* | *43* | *63* | *146* |
| ***Cəmi:*** | ***205*** | ***189*** | ***279*** | ***673*** |

***“Neftçi İdman Klubu” İctimai Birliyinin mətbuat xidməti***

# Güləş üzrə yığmalarımız təlim-məşq toplanışında

Güləş üzrə yığma komandalarımız təqvim planında nəzərdə tutulan cədvəl üzrə qarşıdan gələn reytinq xarakterli beynəlxalq turnirlərə hazırlıqları davam etdirirlər. Yığma komandalarımız təlim-məşq toplanışını Türkiyədə davam etdirirlər. Ayın əvvəlindən qonşu respublikaya yollanan yunan-Roma yığmamızın iştirak etdiyi təlim-məşq toplanışında Türkiyə ilə yanaşı, Hindistan, Qırğızıstan, Gürcüstan, Bolqarıstan, Estoniya, Litva, Ukrayna və Moldova komandaları da iştirak edir.

Sərbəst və qadın güləşi üzrə yığmamızın üzvləri də ötən həftədən etibarən İstanbulda təlim-məşq toplanışına başlayıblar. Sərbəst güləşçilərimiz Hindistan, Türkiyə, Belarus, Ukrayna və Tatarıstan komandaları ilə birgə hazırlıq keçirlər. Qadın güləşçilərin təlim-məşq toplanışında isə yığmamızla yanaşı, Türkiyə və Hindistan komandaları da var. Təlim-məşq toplanışı başa çatdıqdan sonra güləşçilərimiz iyulun 27-29-da Türkiyənin İstanbul şəhərində keçiriləcək Yaşar Doğunun xatirəsinə həsr olunan reytinq xarakterli beynəlxalq turnirdə mübarizə aparacaqlar.






# Millimiz təlim-məşq toplanışına start verdi

Voleybol üzrə qadınlardan ibarət yığmamız Sloveniyanın Maribor şəhərində təlim-məşq toplanışında iştirak edir. Baş məşqçi Faiq Qarayev ilk həftədə fiziki hazırlığa diqqət yetirəcək. Komanda açıq havada qaçacaq və fitnesdə məşq edəcək. Avqustdan etibarən isə komandamız taktiki-texniki hazırlığa üstünlük verəcək.

Qeyd edək ki, millimiz zalda məşqlər keçməklə yanaşı, müxtəlif komandalarla yoxlama oyunlarında qüvvəsini sınayacaq.

## Cüdoçumuz Asiya kubokunda bürünc mükafata yiyələndi

Çinin Makau şəhərində cüdo üzrə yeniyetmələr arasında Asiya kuboku yarışı keçirilib. Azərbaycan Cüdo Federasiyasının verdiyi məlumata görə, yığmamız yarışda bir medal qazanıb.

Belə ki, 66 kq çəki dərəcəsində ölkəmizi təmsil edən Vüqar Talıbov bürünc medala sahib olub.

Qeyd edək ki, 29 ölkədən 125 (80 oğlan, 45 qız) cüdoçunun qüvvəsini sınadığı mötəbər turnirdə Azərbaycan millisi 3 cüdoçu ilə təmsil olunub.

## “Dəmir Mayk” Bakıya gəlir?

“Godzilla” promoşn qrupunun dəvətiylə Azərbaycana gələn UFC-nin canlı əfsanəsi, məşhur döyüşçü, adı turnirin fəxri zalına həkk olunan Roys Qreysi mətbuat konfransı keçirib.

Azərbaycanda idmana dövlət səviyyəsində diqqətin olmasından xəbərdar olduğunu deyən braziliyalı idmançı gələcəkdə Bakıda öz akademiyasının nümayəndəliyini açmaq barədə düşündüyünü deyib.

Medianın suallarına cavab verən “Godzilla” promoşn qrupunun rəhbəri Emil Əmiraslanov Roys Qreysinin səfəriylə bağlı danışıqların iki ay davam etdiyini vurğulayıb: “Onun Braziliyada Ciu-citsu üzrə akademiyası fəaliyyət göstərir. Biz hazırda Bakıda həmin akademiyanın filialını açmaq barədə müzakirələr aparırıq. Üstəlik Roysun dəstəyilə “Belator” yarışını ölkəmizə gətirmək istəyirik. Nüfuzlu yarışın bir mərhələsinin Bakıda keçilmə ehtimalı var”.

Emil Əmiraslanov payızda Bakıya daha bir məşhur idmançının gələcəyini açıqlayıb. Danışıqlar müsbət yekunlaşacağı halda peşəkar boksçu WBF, WBC və İBF versiyaları üzrə çempion Mayk Tayson iki günlük səfərlə Azərbaycana gələcək.

## Klublarımız beynəlxalq turnirdə iştirak ediblər

Gürcüstanın Rustavi şəhərində 3x3 basketbol üzrə beynəlxalq turnir keçirilib.

Ölkəmizi turnirdə “3x3 Azərbaycan” (Nicat Mirzəyev, Teymur Quliyev, Ramil Eyyubov) və “Feniks Bakı” (Rəhman Teymurbəyov, Elmar Mirbağırov, Andrey Kondratyev, Fariz Qənbərov) komandaları təmsil ediblər.

Hər iki komandamız dörddəbir finala vəsiqə qazansa da, yarımfinal mərhələsinə keçə bilməyib. Təmsilçilərimizdən “Feniks Bakı” beşinci, “3x3 Azərbaycan” isə altıncı yerləri tutublar.

* * *

Bolqarıstanda “B” divizionunun gənclərdən ibarət basketbol komandaları arasında Avropa çempionatı keçirilir.



Azərbaycan yığması 17-22-ci yerlər uğrunda birinci matçında Moldova yığması ilə qarşılaşıb və böyük hesabla rəqibini məğlub edib: 121:56. Komandaya xalların çoxunu Endər Poladxanlı qazandırıb: 48 xal.

## Millimiz Avropa Liqasında ilk oyununu keçirib

Çimərlik futbolu üzrə Azərbaycan milli komandası Moskvada təşkil olunan Avropa Liqası (Euro Beach Soccer League) turnirində ilk oyununu keçirib. Yığmamız Rusiya komandası ilə qarşılaşıb. millimiz bu görüşdə rəqiblərinə 3:8 hesabı ilə məğlub olublar. Millimizin qollarını Sabir Allahquliyev, Asif Zeynalov və Amid Nazarov vurublar.




# “Mersedes” Bottas ilə yeni müqavilə imzalayacaq

“Mersedes” komandası öz pilotu Valtteri Bottas ilə yeni müqavilə imzalandığını bəyan edib.

Birillik yeni sənədə 2020-ci il mövsümü üçün də əməkdaşlığın uzadılması şərti əlavə olunub.

Valtteri Bottas “Mersedes” komandasının heyətində 2017-ci ildən çıxış edir. Ötən mövsümdə pilot 305 xal toplayaraq ümumi hesabda üçüncü yeri tutub. Bu çempionatda isə Bottas 10 mərhələdən sonra yalnız beşinci yerdə qərarlaşa bilib. Finlandiyalı pilotun hesabında 104 xal var.

İyulun 19-da “Mersedes” hazırkı dünya çempionu Luis Hamiltonla 2020-ci ilədək yeni kontrakt imzalandığını açıqlayıb.

* * *

Mayami şəhərinin hakimiyyət orqanları Formula-1 yarışlarının keçirilməsi barədə qərarı avqust ayınadək təxirə salıblar.

Əvvəlcə komissiyanın iclası iyulun 26-na planlaşdırılmışdı. Amma fakt üzrə müzakirələr yalnız avqustda - şəhər komissiyasının bütün üzvləri məzuniyyətdən qayıdandan sonra aparıla bilər.

Mayaminin siti-meneceri Emilio Qonsalesin sözlərinə görə, Formula- 1-in Mayami mərhələsini 2019-cu il mövsümündə keçirmək qərarı qüvvədədir. Amma şəhər rəhbərliyi məsələni bir daha müzakirə etmək və bu qərarın düzgünlüyünə əmin olmaq istəyir. İlkin məlumata görə, Formula-1-in Mayami mərhələsi 2019-cu ilin oktyabrında keçirilə bilər.

# Qrossmeysterlərimiz şahmat festivalında çıxış edirlər

İsveçrənin Bile şəhərində 50-ci şahmat festivalı start götürüb. Festivalın proqramına ACCENTUS Grandmaster Tournament və Master Tournament turnirləri daxildir.

İsveçrə festivalında Azərbaycan idmanının şərəfini qrossmeyster Şəhriyar Məmmədyarov qoruyur.

İki dövrəlik ACCENTUS Grandmaster Tournament turnirində hazırkı dünya çempionu, norveçli Maqnus Karlsen (2842), Şəhriyar Məmmədyarov (2801), fransalı Maksim Vaşye-Laqrav (2779), rusiyalı Pyotr Svidler (2753), çexiyalı David Navara (2741) və yerli şahmatçı Niko Georgiadis (2526) qarşılaşacaqlar.

İsveçrə sistemi üzrə keçirilən Master Tournament turnirində 143



idmançı, o cümlədən 30 qrossmeyster iştirak edir. Turnirin proqramına Fişer şahmatı, rapid, blits və digər yarışlar daxildir. Bu turnirdə Azərbaycanı Şəhriyar Məmmədyarovun bacısı Türkan Məmmədyarova təmsil edir.




Mundial düşüncələri

# Futbol aləmi sirli bir dünyadır



*Mobil İSMAYILOV*

***Haqlı olaraq belə deyirlər ki, futbolun cazibəsindən qurtulmaq çətindir. Çoxları üçün hərdən futbol möcüzəli anlar da yarada bilər.Belə möcüzəli anlar futbolsevərlərin həyatının müəyyən bir hissəsini zəbt edir, azarkeşləri öz təsiri altında saxlayır, sanki bəzən təqib edir, zövq verdiyi qədər də insanları düşündürür, onların əsəblərini tarıma çəkir. Hətta elə olur ki, azarkeşlərin bir anlığa ağlını da başından alır.***

***Azarkeş sanki dərk etmir ki, futbolu niyə bu qədər sevir? Futboldan zövq almağının səbəbini bilmir, bu sirri anlamır. Oyun zamanı baxdıqları, hiss etdikləri, duyduqları azarkeşləri başqa bir aləmə aparır. Belə anlarda onlar heç nə haqda düşünmürlər. Hər hansı bir səbəbə, sirrə, möcüzəli anların mahiyyətinə varmadan sanki dəlicəsinə futbola tamaşa edirlər..Bəlkə də futbolun gözəlliyi elə bundadır.***

***Həqiqətən futbol aləmi sirli bir dünyadır. Müəyyən vaxt keçir, hətta bəzən illər də ötür. Futbolsevərlər, idman yazarları, mütəxəssislər bu sirləri açmağa çalışırlar. Bəzən buna nail olurlar, bəzən də yox. Hər bir halda futbol azarkeşin daxilində nə varsa əlindən alır və öz aləminə qatır. İzaholunmaz duyğular, elə izaholunmaz da məmnunluq yaradır. Təbii ki, əksinə də ola bilər. Həyəcan, stress, əsəbilik, kədər...***

***Əvvəlki yazılarımda oyunları ruhuma təsir edən dahi futbolçular haqqında fikirlərimi qələmə almışdım. Futbolla bağlı müəyyən söhbətlər açmışdım. Hamısı da duyğusal, səmimi.***

Bu dəfə yenicə başa çatmış futbol üzrə dünya çempionatından söhbət açmaq istəyirəm. Səs-küylü futbol dünyasında dünya çempionatlarının xüsusi yeri var. Dünya çempionatlarında futbol ehtirasları sanki başqa cür olur. Məhz burada yeni oyunçular kəşf edilir və yaxud köhnələri yenidən kəşf edilir.Futbola yeni çalarlar əlavə olunur. Bir sözlə, futbol daha da zənginləşir. Hər dünya çempionatının da özünəməxsus gözəllikləri olur. Yığma səviyyəsində möhtəşəm qarşılaşmaların bol olduğu dünya çempionatı tamaşaçıların böyük marağına səbəb olduğundan futbolsevərlər hər dəfə növbəti dünya çempionatını səbirsizliklə gözləyirdilər.

Təbii ki, axırıncı dünya çempionatı ilə bağlı mütəxəssislər, idman yazarları tərəfindən fərqli, müxtəlif yanaşmalar da olacaq.Amma reallıqlar olduğu kimi qalacaq.Hər bir halda bu çempionatdan da bizə xoş xatirələr, maraqlı epizodlar, unudulmaz anlar qaldı.

## Öz coşqunluğu ilə isti yay havalarını bizə unutduran çempionat

Rusiyanın ev sahibliyi etdiyi qaynar bir çempionat izlədik. Hər şey vardı bu mundialda: çılğınlıq, həyəcan, coşqu, heyranedici anlar, əsəbilik, stress...Tamaşaçıları vəcdə gətirən qollar da oldu. Azarkeşləri haldan çıxaran oyunlara da rast gəldik. Sanki dünya çempionatı öz coşqunluğu ilə bu isti yay havalarını bizə unutdurdu. Əslində elə isti yay qayğıları da yaddan çıxmışdı...

Ona görə də bu dünya çempionatının incəliklərindən, nüanslarından danışmaq, intriqalardan söz açmaq istəyirəm. Axı, hər şeyi gördük - təlaş, heyrət, titrəyiş, bəzi anlarda gözlərin bağlanması, ehtiraslı baxışlar, sevinc göz yaşları, xoşbəxtlik içində üzənlər,kədər göz yaşları... Onda niyə danışmayaq,əziz oxucu?! Elə isə bəlkə başlayaq? Beləliklə, getdik....

Çempionatdan qabaq çoxları kimi mən də fikirləşirdim ki, İtaliya, Hollandiya bu mundialda olmasa da, hər halda Almaniya,



Argentina, Braziliya, İspaniya var. Hardasa bu iki Avropa komandalarının yoxluğunu iddialı yığmalar yəqin ki, hiss etdirməyəcəklər tamaşaçılara. Amma təəssüf ki, belə olmadı. Gözlənildiyinin əksinə olaraq favoritlər yarı yolda qaldılar.

Almaniya ilk oyununu uduzanda mən bunu başa düşülən bir təbəssümlə qarşıladım.Dünya çempionatlarının qrup oyunlarında Almaniyanın nisbətən zəif komandalara ilk görüşdə məğlub olmalarını mütəxəssislər, futbolsevərlər təbii ki, xatırlayırlar. Belə məğlubiyyətlərə baxmayaraq almanlar hər dəfə növbəti mərhələyə çıxa biliblər. Məsələn, 1974-cü ilin dünya çempionatında Qərbi Almaniya qrup mərhələsində "qonşu" Almaniya Demokratik Respublikasına 0-1 hesabı ilə uduzdu.Görəsən o vaxt bu nəticəni həqiqətən də "məğlubiyyət" hesab etmək olardımı?!

Məncə (əslində böyük əksəriyyət belə düşünür) bu, "düşmən" ölkənin komandasının növbəti mərhələyə çıxması üçün lazım idi. Bundan başqa Almaniya dünya çempionatlarının qrup oyunlarında Tunisə və Avstriyaya da uduzub. Bunları xatırlayarkən Almaniyanın növbəti çempionata məğlubiyyətlə başlamasına elə də önəm vermədim. İsveçlə oyunun son dəqiqələrində yüksək sürət və əzmkarlıq sayəsində almanlar qələbə qazana bildilər. Axırıncı oyun öncəsi hamı düşünürdü ki, almanlar Cənubi Koreya səddini asanlıqla keçəcəklər. Məşqçi heyəti də, futbolçular da buna əmin idilər. Ancaq arxayınçılıq, özünə əminlik Almaniya yığmasına baha başa gəldi. Nəticənin koreyalılar üçün heç bir əhəmiyyət kəsb etməməsinə baxmayaraq onlar qalib gəldilər. Burada nəzərimdən qaçmayan maraqlı bir məqama toxunmaq istəyirəm. Matç bitdikdən sonra alman futbolçular, bütün nümayəndə heyəti, stadionda olan tamaşaçılar uzun-uzadı ikrahla koreyalıları süzürdülər...

## "Alman maşını" tab gətirmədi

Beləliklə, Almaniyanın bu çempionata tam hazır olmadığı üzə çıxdı. Hətta bütün komanda ilə müdafiəyə çəkilən İsveçlə oyunun sonunda vurulan "xilas qolu" da Almaniyanı həlledici oyuna kökləyə bilmədi. Yoahim Löv müsbət reytinqli məşqçilərdən hesab olunur. Əlbəttə, təbii ki, o, daha yaxşı heyət formalaşdıra bilərdi. Alman məşqçi təcrübəli, lakin nisbətən yaşlı oyunçulara güvəndi ki, bu da özünü doğrultmadı. Əslinə qalsa, Lövə qarşı sərt mövqe tutanlar, onu tənqid edənlər haqlıdırlar. Məsələn, bəllidir ki, Tomas Müller təkcə Münxendə deyil, ümumiyyətlə, Almaniyada populyardır. Köklü alman futbolçu kimi onu sevirlər, ona rəğbət bəsləyirlər.

Lakin çoxdandır ki, istər daxili çempionatın vacib oyunlarında, istərsə də Çempionlar Liqasının oyunlarında o, artıq heç nə ilə yadda qalmır. Məsut Özil vaxtı ilə yaxşı oynadığı illərdə həmişə deyirdi ki, onun idealı Zinəddin Zidandır. Buna görə də daim cəhd edir ki, onu təkrarlasın. Hətta məşqlərdə də bu istiqamətdə çalışır, Zidanın bəzi hərəkətlərini öyrənib tətbiq edir. Ancaq Məsut Özil İngiltərə Premiyer-liqasında "Arsenal"ın tərkibində bu il çox uğursuz bir mövsüm keçirdi.Yığmada da meydana çıxdığı oyunlarda açıq - aşkar sezilirdi ki, alman yarımmüdafiəçi formada deyil. Buna görə də onun Rusiyaya gətirilməsi mütəxəssislər üçün də anlaşılmaz idi. Bəli, Zidanın oyununu bəyənmək hələ azdır.Onu təkrarlamaq üçün gərək elə Zidan olasan!... Mario Qomesin də artıq əvvəlki illəri deyil. Bu dəfə yaş öz sözünü dedi. Antonio Rüdiger "Çelsi"nin heyətində elə də uğurlu mövsüm keçirməmişdi. Onun fiziki göstəriciləri yaxşı olsa da, tez-tez ciddi səhvlərə yol verir və kobudluğu ilə yadda qalır. Xedira "Yuventus"da yaxşı təsir bağışlasa da, son vaxtlar nədənsə yığmada onun oyunu alınmır. Azarkeşlər, tamaşaçılar, mütəxəssislər (elə Lövün özü də) Boatenqdən və Drakslerdən çox şey gözləyirdilər. Ancaq təəssüf ki, onlar da ümidləri tam doğrultmadılar.



Göründüyü kimi, bu dəfə "alman maşını" əvvəlcədən lazimi qaydada hazır vəziyyətə salınmadığından tab gətirmədi. Almaniyanın heyəti elə təşkil olunmuşdu ki, əslində burada seçilən oyunçular mövqe və kimin meydana çıxması baxımından real rəqabətlə qarşılaşmadılar.

## Favorit komandanı idarə etmək çox çətindir

Mən məşqçilərlə bağlı əvvəlki yazılarımın birində Lövü ən yaxşı məşqçilər siyahısında göstərmişdim. Bu gün də həmin fikrimdə qalıram.Amma təbii ki, bu çempionatdan sonra Almaniyanın uğursuz çıxışına görə Lövə qarşı etimad istər-istəməz azalmış kimi görünəcək.

Məlum olduğu kimi, Argentina Cənubi Amerika qrupundan dünya çempionatına vəsiqəni axırıncı görüşdə qazanmışdı. Gözlənilirdi ki, bundan sonra ölkə federasiyası, yığmanın rəhbərliyi Argentinanın dünya çempionatında uğurla çıxış etməsi üçün mümkün olan bütün hazırlıq planlarını həyata keçirəcək və komandada müsbət dəyişikliklər baş verəcək. Hətta Argentinanı favoritlər sırasında görənlər də çox idi. Lakin ehtimallar, gözləntilər öz təsdiqini tapmadı.

Əvvəla deməzdim ki, Argentina mundiala optimal heyətlə gəlmişdi. Elə ilk iki oyun heyətdə problemlər olduğunu göstərdi. Argentinanın sanki sistemsiz oynadığı nəzərə çarpırdı. Belə təsəvvür yaranırdı ki, oyunçular qısa müddətdir bir yerə toplaşıblar, bir-birinin oyun stilinə bələd deyillər, qarşılıqlı anlaşma arzuolunan səviyyədə deyildir, futbolçular özlərini toparlamaqda çətinlik çəkirlər və s. Hamı səbirsizliklə Messinin oyununu gözləyirdi. Amma bu dəfə o, fərdi ustalığını ortaya qoya bilmədi. Bu dəfə Messinin sehirli oyununu görmək tamaşaçılara nəsib olmadı. Messi bu dəfə azarkeşləri, futbolsevərləri heyran edə bilmədi. Bu çempionatda sadəcə alınmadı, vəssalam. Həmişə ecazkar oyun göstərmək mümkün deyildir.

Dahi futrbolçular bütün dövrlərdə dahilərə layiq oyun göstərə bilməzlər. Yeri gəlmişkən, bu fikirləri elə Ronaldoya, Neymara da aid etmək olar. Amma Messi yenə də komandanın lideri idi. Sadəcə digər yığma üzvləri tərəfindən yetərincə dəstək ala bilmirdi. Buna görə də bu dəfə canını, varlığını oynadığı futbola qoya bilmədi. Messidən əlavə Otamendi, Merkado, Baneqa da yaxşı təsir bağışlayırdılar. Aquero, İquain, Mesa, Dibala bir qədər həvəssiz görünməklə onların ideal formalarından uzaq olmaları açıq-aşkar hiss edilirdi. Hər oyunda yığmanın baş məşqçisi Sampaoli də sanki lazımi taktikanı müəyyənləşdirə bilmirdi. Ümumiyyətlə, favorit komandanı idarə etmək çox çətindir. Futbolçuların yerini düzgün müəyyənləşdirmək, əvəzetmə prinsiplərini dəqiq, vaxtında həyata keçirmək, oyunçular arasında normal münasibətlərin yaranmasına nail olmaq, hər dəfə onları növbəti oyuna kökləmək, komanda atmosferini sabit saxlamaq belə yığmalarda heç də asan əldə olunmur. Çempionat göstərdi ki, baş məşqçi bu vəzifələrin öhdəsindən gələ bilmədi

Bəzi idman şərhçilərinin açıq dediyi kimi, məşqçinin görkəmindən də çox şey asılıdır. Onlar təbii ki, Sampaolinin arabir qeyri-adi hərəkətlərinə, davranışına, geyiminə, görkəminə eyham vururdular.

Amma qeyd etmək lazımdır ki, hər bir halda Argentina Fransa ilə oyunda var gücünü ortaya qoydu və bacardığını da etdi. Əslində Fransa ilə heç də pis oynamadı. Sadəcə gənc, sürətli Mbappe bu oyunda öz sözünü dedi. Fransızlar göstərdilər ki, daha sürətli oynayan komanda qalib gəlir. Yəqin ki, yaxın gələcəkdə həm Almaniya, həm də Argentina yığma komandalarında hərtərəfli islahatlar aparılacaqdır.

## Penaltilər taleyin qismətidir

Çoxları güclü heyətə malik İspaniyadan qeyri-adi, az qala fantastik oyun gözləyirdilər. Ümumiyyətlə, İspaniya hərəkətli komanda kimi qəbul edilir. Ona görə də ispanlarla görüşə çıxan komanda qapalı oynamağa çalışır. Tam müdafiəyə çəkilən rəqibə isə qol vurmaq çətin olur. Rəqib tam qapanıbsa, çoxlu futbolçu ilə hücum edilməsinə baxmayaraq müdafiəsiz qalan yer, boşluq tam müşkülə çevrilir. Mərakeş və İran yığmaları ilə oyunda böyük ərazi üstünlüyünə, bütün komponentlərdə açıq-aşkar irəlidə olmasına baxmayaraq, ispanların qol vurmaqda çətinlik çəkmələri hiss olundu. Topa sahib olma faizinin hər dəfə yüksək olması isə hələ qələbə demək deyil.

Ona görə də Rusiya ilə oyuna İspaniya daha məsuliyyətli yanaşmalı idi. İspanlar onsuz da rəqiblərinin qapalı oynayacaqlarını gözləyirdilər. Əla heyətə malik olan belə komanda məsələnin penaltilərə gəlib çatmasına imkan verməməli idi. Dünya çempionatı bir daha göstərdi ki, bütün oyun boyu topa nəzarət etmək hələ qələbəyə təminat vermir. Rusiya ilə oyunda İspaniya meydanda "ağalıq" etsə də, növbəti mərhələyə çıxa bilmədi.

İspaniya bu cütlükdən qalib çıxsaydı, hələ bilmək olmazdı, bəlkə də finala qədər irəliləyə bilərdi. Amma nə edəsən ki, penaltilər taleyin qismətidir. Şirin qismət varsa, tale bəxş edibsə, futbolçular penaltini vururlar, komanda da növbəti mərhələyə çıxır. Taleyin kəskin dönəmi olanda, ulduz futbolçu da penaltini vura bilmir. Ümumiyyətlə, futbolda bəxt amilinin həlledici rolu var, o ki, qala hələ penaltilərə...

## Fərdi ustalığını göstərə bilməyənlər və etimadı doğrultmayan oyunçular

Hər bir halda ispanların oyun sistemi, seçdikləri plan və taktika mükəmməl deyildi. Xüsusən, İran və Rusiya ilə oyunlarda heç cürə onların qapısına yol tapa bilmirdilər. "Mançester Citi"də əla mövsüm keçirən David Silva nədənsə yığmada fərdi ustalığını göstərə bilmədi. Özlərinə məxsus oyun tərzi ilə seçilən Vaskes və Asensio da zəif təsir bağışladılar. Halbuki hər ikisi "Real"ın heyətində meydana çıxdıqları hər bir oyunda özlərini yalnız yaxşı tərəfdən göstərməklə yadda qalırdılar. Etimadı doğrultmayan oyunçular da oldu. Məsələn, Kosta, Rodriqo. Yalnız İsko bütün oyunlarda tükənməz enerjisi sayəsində seçilirdi. Əlbəttə, Fernando Yerro qısa müddətdə müəyyən planlar, taktiki gedişlər, yeni ideyalar tapıb ortaya qoya bilməzdi. Belə bir fikir də yarana bilər ki, gözlənilməz məşqçi dəyişikliyi komandanın oyunlarına təsir etdi. Əslində belə fikir müzakirələr, təhlillər zamanı irəli sürülməklə ehtimal xarakteri daşıyır.

Təsəvvür edin ki, İspaniya digər mərhələləri keçməklə gəlib dörd komanda sırasına düşüb. Və yaxud, elə finala çıxıb. Əgər bu baş versəydi, onda hamı Yerro haqqında başqa fikirdə olacaqdı.

Eyni zamanda qəti şəkildə, mütləq olaraq düşünürəm ki, futbolçunun sifətində, gözündə həvəs olmalıdır. Hər şey elə burdan başlanır. Əks halda futbolçu sönük oyun göstərəcək.

Əslində, istər Almaniya, istərsə də İspaniya komandalarında sanki motivasiya yox idi. "Doymuş" komandaların, hər şeyə nail olmuş oyunçuların, uğurlara, bütün titullara alışmış, bəlkə də bunlardan yorulmuş futbolçuların belə uğursuz vəziyyətlə üzləşməsini, yəqin ki, təbii qəbul edənlər də tapılacaq....

*(ardı var)*

# “Qarabağ”dan Çempionlar yolunda növbəti addım

Azərbaycan çempionu “Qarabağ” klubu futbol üzrə UEFA Çempionlar Liqasının ikinci təsnifat mərhələsinə yüksəlib.

İyulun 18-də turnirin birinci təsnifat mərhələsinin cavab oyunları çərçivəsində “Qarabağ” komandası Tofiq Bəhramov adına Respublika stadionunda Sloveniyanın “Olimpiya” komandasını qəbul edib. İsrailli baş hakim Erez Papirin idarə etdiyi oyunun ilk hissəsində komandalar təhlükəli vəziyyətlər yaratsalar da, top qapıdan keçməyib. Matçın ilk hissəsində hesab açılmayıb.

İkinci hissəyə komandalar daha fəal başlayıblar. Ancaq baxımlı oyun nümayiş etdirən futbolçular ikinci hissədə də fərqlənə bilməyiblər.

Beləliklə, “Qarabağ” - “Olimpiya” matçında hesab açılmayıb.

Xatırladaq ki, bu komandalar arasında Sloveniyada keçirilmiş ilk oyunda “Qarabağ” 1:0 hesabı ilə qələbə qazanıb. İki oyunun nəticəsinə görə, Azərbaycan çempionu turnirin ikinci təsnifat mərhələsinə adlayıb. Bu mərhələdə komandamızın rəqibi Albaniyanın “Kukesi” klubu olacaq. Tərəflər arasında həmin oyun iyulun 25-də keçiriləcək. Maraqlıdır ki, indiyədək klublarımız bu tarixdə 4 matça çıxıb. Bu matçların üçü evdə, biri isə səfərdə təşkil olunub.




Oyunun keçiriləcəyi günü təmsilçilərimiz üçün uğurlu hesab etmək olmaz. Düzdü, 5 il öncə “İnter” (indiki “Keşlə”) öz meydanında”Tromse”ni məğlub edib. Lakin 1:0 hesablı qələbə mərhələ keçmək üçün yetərli olmamışdı.

Eyni gündə rəqibini evdə qəbul edən digər komandamız - “Xəzər Lənkəran” isə tarixinin ən acınacaqlı məğlubiyyətini alıb. Cənublular Hayfa “Makkabi”sindən 8 cavabsız qol buraxıb.

2013-cü il iyulun 25-də yalnız “Qarabağ” azarkeşlərini sevindirməyi bacarıb. Təmsilçimiz Polşa “Pyast”ı ilə 2:2 hesablı heç-heçə etsə də, mərhələ keçmək üçün yetərli olan bərabərlik qolunu əlavə vaxtda vurub.

Ağdam klubu ötən il də həmin tarixdə meydana çıxıb. Bu dəfə rəqib Moldova “Şerif”i olub. Qurban Qurbanovun yetirmələri ev matçında qolsuz sülhə imza atıblar. Təmsilçilərimizin 1 qələbə, 2 heç-heçə və 1 məğlubiyyətlə diqqət çəkdiyi gündə hər iki bərabərlik “Qarabağ”ın hesabındadı.

Məlumat üçün bildirək ki, bu mərhələdə 2 gün ərzində 12 qarşılaşma keçiriləcək.

Bu matçların 10-da çempionlar, 2-də isə öz ölkəsində mükafatçı olan komandalar meydana çıxacaqlar. Mərhələyə Qazaxıstanda start veriləcək. “Astana” öz meydanında “Midyulland”ı qəbul edəcək. İlk oyun günündə 6 dueldə çempionlar üz-üzə gələcək. Maraqla gözlənilən qarşılaşmaların birində PAOK “Bazel”i sınağa çəkəcək.

Liqa yolunda isə “Ayaks” Avstriyanın “Şturm” komandası ilə qarşılaşacaq.

## Çempionlar Liqası

### II təsnifat mərhələsi

### Çempionlar yolu

**24 iyul**

18:00. “Astana” (Qazaxıstan) - “Midyulland” (Danimarka)
20:00. ÇFR (Rumıniya) - “Malmö” (İsveç)
22:00. “Dinamo” (Zaqreb, Xorvatiya) - “Hapoel” (Beyer-Şeva, İsrail)
22:15. “Şkendiya” (Makedoniya) - “Şerif” (Moldova)
22:30. “Srvena Zvezda” (Serbiya) - “Suduva” (Litva)
23:00. “Legiya” (Polşa) - “Spartak” (Slovakiya)

**25 iyul**

21:00. “Ludoqorets” (Bolqarıstan) - “Videoton” (Macarıstan)
21:00. BATE (Belarus) - HİK (Finlandiya)
21:00. “Kukesi” (Albaniya) - “Qarabağ” (Azərbaycan)
22:45. “Seltik” (Şotlandiya) - “Rusenborq” (Norveç)

### Liqa yolu

**24 iyul**
21:30. PAOK (Yunanıstan) - “Bazel” (İsveçrə)
**25 iyul**
22:30. “Ayaks” (Hollandiya) - “Şturm” (Avstriya)

# “Neftçi”nin udub, bizi sevindirəcək günü olacaq?

Biz DÇ-nin finalında Xorvatiyanın qələbəsini istəyən azarkeşlərdən idik. Amma Xorvatiya bizi məyus elədi. Bundan sonra hələ ümidimiz ölməmişdi. Azarkeş kimi son ümidimiz Avropada mübarizə aparan klublarımız idi. Onların arasında “Neftçi”dən böyük uğur gözləyirdik. Uğur deyəndə ki, ən azı mərhələ keçib, bizə Avropada sevinc bəxş etsin. “Neftçi”dən danışmaq istərdik. İllərdən bəri “ağı” “qaraya” çevirən bu klubumuzun nəhayət ki, ürəklərimizdə ümid çırağı yandıracağını gözləyirdik. Macarıstanın tanınmış klubunu - “Uypeşt”i Bakıda 3:1 hesabı ilə məğlub edəndə çox sevinmişdik. Elə bilirdik, Oğuz elinin “Neftçi” tərəfdən məyusluğu bundan sonra arxada qaldı. Amma “Susa Frenç”də (“Uypeşt”in ev oyunlarını keçirdiyi stadion) komandamız elə oyun göstərdi ki, susub qaldıq. Rəqib komandamızı ilk dəqiqədən küncə sıxıb, böyükhesablı qələbə qazandı: 4:0! Günahı kimdə görək? Klub rəhbərliyində, yoxsa futbolçularda? Bəlkə biz azarkeşlərdə görək o günahı ki, işdən yorğun amma sevinclə gəlib, “Neftçi”nin ən azı bir qol vuracağına ümid edirdik? Ötən mövsümün sonlarında sevinirdik ki, “şükür “Neftçi” dirçəldi”. Daha bundan sonra bu “adı” uca tutub, həmin ada uyğun oynamağa çalışacaqlar. Son məqama qədər “quruya çıxmış balıq” kimi çırpınan komandanı uzun sürən həsrətdən sonra Avropa meydanlarında görəcəyik. “Uypeşt”ə Bakıda qalib gələn komandadan səfərdə ən azı heç-heçə, ya da 1 top fərqilə məğlubiyyət gözləyirdik. Amma belə olmadı. Nəticədə “”Neftçi”nin udan günü var ki?” frazası yenidən dillərdə dastan oldu. Əslində güc-bəla ilə ölkə çempionatında üçüncü yeri tutub, Avropa liqasına vəsiqə qazanan komandanın bu yarışda mərhələ keçməsi “möcüzə” ola bilərdi. Amma təəssüf ki, bu “möcüzə” baş vermədi?! Görəsən, hər il, hər şeyə “0”dan başlayan komanda nə vaxt sürət götürəcək? Yeni rəhbərlik, yeni baş məşqçi və qeyri-stabil çıxış edən futbolçular...Yox, belə olmur. Adlarını sadaladıqlarımız birdəfəlik başa düşməlidirlər ki, “Neftçi” Azərbaycan futbolunun brendidir. Bu adla neçə-neçə veteran futbolçu, minlərlə azarkeş “nəfəs alır”. Axı onların sağlamlığı ilə oynamaq insafsızlıqdır. Dünyasını dəyişənlərin isə ruhu narahatdır. Dərdimizi kimə deyək? Bakıdakı qələbədən sonra qorxa-qorxa deyirdik ki, nəhayət... İspaniya futbolunun iddialı klubu, Avroliqanın qənimini də Bakıda görəcəyik. Təsəlli verirdik ki, uduzsaq da, qoy “Sevilya”ya uduzaq. Təki bizi Avroliqadan bu yarışın 5 qat qalibi uzaqlaşdırsın. Amma bu bir fərziyyə və yarımçıq qalmış arzudan başqa bir şey deyil. Bu yerdə “Neftçi”ni Avropada tanıtdıran rəhmətlik Böyükağa Hacıyev yada düşür. Onun vaxtında “Neftçi” “Uypeşt”dən də adlı sanlı komandaları məğlubiyyətə uğratmışdı. O insan sağlığında çox iddialı idi. Dilindən çıxan hər bir sözü tutmağı bacarırdı. Əgər deyirdisə, biz “Skenderbeu”nu (Albaniya), “Koper”i (Sloveniya) və yaxud “Partizan”ı (Serbiya) udacağıq, elə də olurdu. B.Hacıyev baş məşqçi kimi bizi öz dövründə çox arxayınlaşdırmışdı. Allah ona rəhmət eləsin. Bəs indi kimə inanaq? Bu sözləri deyə biləcək qədər güclü xaraketrli baş məşqçi varmı? Roberto Bordin bəlkə də desin, amma o, bu komandaya həmin uğurları qazandıra bilməz. Çünki hər şeydən əvvəl komanda da ruh yüksəkliyi və milli şüur formalaşdırmaq lazımdır. Mətbuat konfransında çıxıb deməklə ki, bu mənim səhvim idi, bununla iş bitmir. “Neftçi” nə vaxta qədər səhvlərin qurbanı olacaq? Zaman dayanmır. Biz isə “Neftçi”nin növbəti fiaskosundan danışıb, dayanacağıq. Lakin hər şey tarixdə qalacaq. Fəqət əbədi yaşayacaq “Neftçi”... Gələcək nəsillər isə bunu bağışlamayacaq. Gəlin hər birimiz sağlam “Neftçi” üçün çalışaq, qoy bu komanda yaşasın. Gələcək nəsillərə gedib çata bilsin. Adı futbol tariximizə qızıl hərflərlə yazılan komandanı tarixdən silmək olmaz.



***Anar Əhmədov***

**Müsahibə**

# “Qürbətdə yaşamaq mənə çətinlik yaradırdı”

Azərbaycanın yetərincə təcrübəli idmançıları və mütəxəssisləri var. Bu mütəxəssislər ölkəmizlə yanaşı, xarici dövlətlərdə də uğurla fəaliyyət göstərərək, bir sıra idmançıların yetişməsində xüsusi rol oynayıblar. Belə mütəxəssislərdən biri də Üzeyir Hacıyevdir. Uzun illərdir ki, Türkiyədə yaşayan və orada fəaliyyət göstərən Üzeyir müəllim bu ölkənin idmanı üçün əlindən gələni əsirgəməyib. Üzeyir müəllim hər dəfə doğma vətəninə - Azərbaycana gələndə redaksiyamızın qonağı olur. Onunla görüşəndə, söhbətimizin əsas mövzusu dəyişmir. Buyaxınlarda yenidən Azərbaycana gələn təcürbəli mütəxəssis redaksiyamızın da qonağı oldu. Üzeyir müəllimlə söhbət zamanı onun fəaliyyəti və bizi maraqlandıran digər məsələlər barədə danışdıq.



***- Üzeyir müəllim, ölkəmizə xoş gəlmisiniz. İstərdik söhbətimizə fəaliyyətinizlə bağlı başlayaq. Bildiyimizə görə Kosova milli komandasında çalışırsınız.***

- Çox sağ olun. Bəli, 1 ildir ki, Kosovanın ağırlıqqaldırma üzrə yığma komandasını çalışdırıram. 2017-ci ildə Kosova milli komandası məni yığmaya dəvət etdi. Burada əsas məqsəd bu ölkənin komandasının Ağdəniz Oyunlarına, Buenos-Ayres-2018 Yeniyetmələrin Olimpiya Oyunlarına və digər yarışlara hazırlamaq idi. Artıq 1 illik məşqlərimizi yekunlaşdırmışıq. Demək olar ki, hər şeyə sıfırdan başladıq. Qısa zaman ərzində bir sıra uğurlu nəticələrə nail olmuşuq. Ötən ay komandamız Barselonada keçirilən Ağdəniz oyunlarında iştirak etdi. Yaxşı nəticələr əldə etdik. Türkiyə millisi birinci yeri tutdu. Kosova komandasını bu yarışda iki idmançı təmsil edirdi. İdmançılarımızdan biri 4-cü, digəri isə 5-ci yeri tutdu. Yeni inkişaf edən bir ölkə üçün bu böyük nailiyyətdir.

***- Qeyd etdiniz ki, 1 ildən çoxdur ki, Kosovada işləyirsiniz. Bəs, Türkiyə?***

- Kosova dövləti Türkiyəyə rəsmi şəkildə müraciət etdi ki, onlara ağırlıqqaldırma üzrə bir məşqçi göndərilsin. Türkiyə və Kosova dövlətləri arasında bu barədə anlaşma memorandumu imzalandı. Türkiyə Ağırlıqqaldırma Federasiyasının prezidenti Tamer Taşpınar mənim Kosovaya getməyimə qərar verdi. Müqavilə 1 illik idi. 1 həftəlik məşqlərdən sonra Kosova Ağır Atletika Federasiyasının rəhbərliyi və atletlər məşqlərdən çox razı qaldılar. Rəhbərlik mənə bildirdi ki, biz sizinlə 2020-ci ilə kimi çalışmaq istəyirik. Onu da qeyd edim ki, bu müqaviləyə baxmayaraq Türkiyədə də öz vəzifəmdə qalmışam.




***- Dəvət olunduğunuz ölkədə işlərinizi hansı səviyyədə qurmusunuz?***

- Əvvəlcə komanda ilə hazırlıq təşkil etdik. Uşaqlara taktiki, texniki hazırlıq və məşq üslubu haqqında göstərişlər verdim. Bundan başqa daxili yarışlar keçirdik. Bir il ərzində U-15, U-17 Avropa çempionatında iştirak etdik. Komandamız həmçinin U-20 və U-23 Avropa çempionatında da mübarizə apardı. Mart ayında isə böyüklər arasında Avropa çempionatında komandanı sınaqdan keçirdim. Bu turnirdən sonra ağırlıqqaldıranlarımız Albaniyada beynəlxalq turnirdə qüvvələrini sınadılar. Bu yarış idmançılarımız üçün uğurlu oldu. Komandamız həmin yarışda 1 qızıl, 1 gümüş və 2 bürünc medal qazandı. Orada təcrübəli məşqçi olmadığına görə mən demək olar ki, bütün yaş kateqoriyaları üzrə olan idmançılarla işləyirdim. Onu da bildirim ki, mən orada üç məşqçi hazırlamışam.

***- Buenos-Ayres-2018-ə çox az vaxt qalıb. Kosova idmançıları bu yarışda hansı heyətlə iştirak edəcəklər?***

- Bu günlərdə İtaliyanın Milan şəhərində U-15 və U-17 yaş kateqoriyası üzrə Avropa birinciliyi start götürüb. Bu yarışda biz 1 və ya 2 lisenziya qazanmağı düşünürük. Ən pis ehtimalla bu yarışda 1 idmançı ilə təmsil olunacağıq. Bundan əlavə təşkilatçılar bildiriblər ki, Kosova ağırlıqqaldıranlarına Buenos-Ayres-2018-də bir yer ayıracaqlar.

***- Yeni işinizdə əsasən hansı məqamlara toxunmusuz?***

- Türkiyədə belə bir düşüncə var ki, ağırlıqqaldırma idmançının boy artımına mane olur. Halbuki, bu xalq arasında olan bir düşüncədir. Gəlin bu məsələyə tibbi tərəfdən baxaq. Onda görəcəyik ki, bütün bunlar idmançının anatomik və genetik göstəricilərindən asılıdır. Elə insanlar var ki, 160 sm boya malikdir. Onda belə çıxır ki, həmin insanların da ştanq qaldırdığı üçün boyu balacadır? Xeyr. Bu, tamamilə səhv düşüncədir. Kosova əhalisinin əksəriyyətini ucaboy insanlar təşkil edir. Burada yaşayan insanlar əsasən basketbolla məşğul olurlar. Kosovaya gələndə gördüm ki, ağırlıqqaldıranlar boy fərqinə görə basketbolçulardan heç də geri qalmırlar. Burada əsas problem çəkinin boya görə olmasıdır. İdmançı var ki, 185 sm boya malik olsa da çəkisi 70 kiloqramdır. Bu, ağırlıqqaldırma üçün arzuolunan hal deyil. Ağırlıqqaldırma qaydalarına görə 70 kq çəkiyə malik olan atletin boyu 160-165 sm olmalıdır. Adi halda 170 sm boya malik olan insanın çəkisi 70 kq olmalıdır. Lakin ağırlıqqaldırmada bu belə deyil. 170 sm boyda olan idmançının çəkisi 90 kq olmalıdır. Kosovadakı idmançıların bədən ölçüləri məni qane etmirdi. Bax, bu sıxıntılar məni bir qədər narahat edirdi.

***- Üzeyir müəllim, qeyd etdiyiniz kimi, sizə 2020-ci ilə qədər Kosovada qalıb fəaliyyətinizi orada davam etdirməyi təklif ediblər. Bu təklif barədə nə düşünürsünüz?***

- Bu məsələlərlə bağlı məni yenidən Kosovaya dəvət edəcəklər. Bu barədə hələ düşünməliyəm. Qərar vermək üçün bir sıra məsələləri incələyib, götür-qoy etməliyəm. Çünki bundan başqa daha iki ölkədən təkliflər almışam. Albaniya və Danimarka variantları var. Hələ ki, bu təkliflər üzərində düşünürəm. Amma bir məsələ də var ki, mənim yaşım da artıq o yaş deyil. Kosovada işləyərkən 1 il öz vətənimdən uzaqda qaldım. Ölkəm, ailəm, uşaqlarım, nəvələrim üçün çox darıxdım. Qürbətdə yaşamaq mənə çətinlik yaradırdı. Buna görə də bu təkliflərlə bağlı hələ dəqiq bir qərar verməmişəm.

***- Kosovada daha hansı idman növləri inkişaf edir?***

- Kosovada idman növləri demək olar ki, təzə-təzə inkişaf edir. Lakin gənc ölkə olmasına baxmayaraq, bu ölkənin atletləri bir sıra uğurlu nəticələrə də nail olublar. Rio-2016 Yay Olimpiya Oyunlarında Kosova dövlətində ilk qızıl medalı cüdoçu qadın Maylinda Kelmendi qazandı. Bu həqiqətən də gənc dövlət üçün böyük nəticə idi. Bundan başqa, basketbol, voleybol, taekvondo idman növləri Kosovada inkişaf mərhələsindədir.

***- Azərbaycanın ağırlıqqaldıranlarının adı son vaxtlar yenə də dopinq qalmaqalında hallanır. Bu məsələyə sizin münasibətiniz necədir?***

- Mən deyərdim ki, bu hal artıq alışqanlığa gətirib. Fikrimcə, burada Federasiyanın prezidentini, vitse-prezidentini və məşqçiləri günahlandırmaq olmaz. İdmançılar özləri bu məsələdə diqqətli olmalıdırlar. İllər ərzində çəkdiyi əziyyəti hədər verməməlidirlər. Bəzi idmançılar var ki, məsləhətsiz dərman pereparatları qəbul edirlər. Məşqçi heç vaxt öz yetirməsinə deməz ki, bu dərmanı qəbul et. Çünki bu məsələdə məşqçi də cəzalana bilər. Bundan əlavə, heç bir məşqçi istəməz ki, onun yetirməsi dopinqdə ilişsin. Türkiyədə bu məsələ həll olundu. Türkiyə Ağır Atletika Federasiyasının prezidenti Tamer Taşpınar bu məsələnin üstündən birdəfəlik xətt çəkdi. Görünən odur ki, Azərbaycanda bu məsələ hələ də tam həllini tapmayıb. İnanıram ki, bu problemlər tezliklə aradan qaldırılacaq.

***Azər Əlizadə***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*“Uşaq və gənclərin fiziki və mənəvi inkişafı”*

# Olimpiya Hərəkatı və idmanın inkişafında kütləvilik əsas şərtdir

***İdman və bədən tərbiyəsi həyatımızın ayrılmaz hissələrindən biridir. Sağlam həyat tərzi üçün idman böyük əhəmiyyətə malikdir. Təcrübələr göstərir ki, idmanla müntəzəm məşğul olanlar digərlərinə nisbətən daha uzun ömürlü olurlar. Bu da birbaşa fəal həyat tərzi ilə bağlıdır. İdmanla məşğul olanlar gümrah görünür və hər bir hadisəyə təmkinlə reaksiya verirlər. Gündəlik məişət və iş həyatında daha qətiyyətli, çevik və inamlı olurlar. Bu isə, müasir dövrümüzdə, bəlkə də, hər şeydən vacibdir.***



## “Kütləvilik nə qədər çox olarsa, uğurlar da bir o qədər çox olar”

Məhz idmanın yuxarıda sadaladığımız keyfiyyətləri nəzərə alınaraq bu gün ölkəmizdə dövlət tərəfindən bu sahəyə xüsusi diqqət və qayğı göstərilir. Hazırda idmanın və Olimpiya Hərəkatının inkişafı dövlətin əsas prioritetlərindən biridir. Sevindirici haldır ki, görülən işlər öz nəticəsini verir. İdmançılarımız beynəlxalq yarışlarda qazandıqları böyük uğurlarla bütün xalqımızı sevindirirlər. Bu istiqamətdə onlarla klub, cəmiyyət və idman məktəbləri öz güclərini səfərbər edir.

Belə idman ocaqlarından biri də “Qəbələ” idman klubudur. Bir çox idman növlərində ən qabaqcıl komandalardan olan “Qəbələ” cüdoda da öz nailiyyətləri ilə fərqlənir. “Qəbələ” idman klubunun cüdo bölməsinin məşqçisi Telman Əhmədlinin fikrincə, cüdonun ölkəmizdə yüksək sürətlə inkişafı birbaşa olaraq yeniyetmə və gənclər arasında bu idman növünə olan maraq və kütləviliklə bağlıdır. “Cüdoda qazandığımız nailiyyətlər göz qabağındadır. Bu, Azərbaycanın bir idman ölkəsi olduğunu göstərməklə yanaşı, həm də bu idman növünün gənclər arasında çox sevilməsindən, həmçinin kütləvilikdən xəbər verir. Belə ki, kütləvilik və böyük nəticələr bir-biri ilə uzlaşır. Yəni kütləvilik nə qədər çox olarsa, uğurlar da bir o qədər çox olar. Göründüyü kimi, indi Azərbaycanda ən kütləvi idman növlərindən biri məhz cüdodur. Bu, əvvəllər də belə idi. İstərdim ki, gələcəkdə də cüdo öz kütləviliyini qoruyub saxlamağı bacarsın. Şübhəsiz ki, kütləviliyin təmin olunmasında və bilavasitə uğurlara aparan yolda təcrübəli mütəxəssislərin, habelə Olimpiya, Avropa və dünya çempionlarının, mükafatçılarının böyük rolu var. Onlar cüdoya yeni başlayanlara kömək edir, tövsiyələr və əlavə stimul verirlər. Nazim Hüseynov, Mövlud Mirəliyev, Mehman Əzizov, Natiq Bağırov, Zülfiyyə Hüseynova, Kifayət Qasımova, Elnur Məmmədli və digərləri vaxtı ilə bugünkü gənc nəslə nümunə olublar. İnanıram ki, gələcəkdə də Elxan Məmmədov, Elmar Qasımov, Rüstəm Orucov, Orxan Səfərov və başqalarının yolunu davam etdirən nəsil yetişəcək”, - deyə Telman müəllim bildirdi.

Qeyd etdiyimiz kimi, “Qəbələ” idman klubu xüsusilə son illər öz uğurları ilə seçilir. Əldə olunan nailiyyətlərdəndən danışarkən Telman Əhmədli vurğuladı ki, bu, heç də təsadüfi deyil, gərgin zəhmətin, çəkilən əziyyətlərin bəhrəsidir. “”Qəbələ” idman klubunun cüdo bölməsində üç məşqçi çalışır. Rail İsmayılov komandanın əsas məşqçisi, Ramin İsmayılov isə baş məşqçidir. Eyni zamanda mən də klubun bu növ üzrə məşqçilərindənəm. Klubda məşq edən yeniyetmə və gənclər cüdonun sirlərinə yiyələnirlər. Onların məşqlərə həvəslə, əzmlə yanaşmaları və məşqçi-müəllimlərin təcrübəsi qazanılan uğurlara yol açır. Hələ ki, sonuncu uğurumuz iyunun 26-28-də DİN İC-də təşkil olunan beynəlxalq turnirdə əldə etdiyimiz iki medal oldu. Belə ki, həmin yarışda 38 kq çəki dərəcəsində mübarizə aparan Məhərrəm Mirzəyev və 50 kq çəki dərəcəsində qüvvəsini sınayan Nurlan Kərimli rəqiblərinə şans verməyərək çempion adını qazandılar. Həmçinin bir müddət əvvəl keçirilən 23 yaşınadək idmançılar arasında Azərbaycan birinciliyində komandamız uğurlu nəticə əldə etdi. Cüdoçularımız həmin yarışda bir qızıl, iki gümüş, bir bürünc olmaqla ümumilikdə dörd medala layiq görüldülər. İyunun 5-də Avstriyanın Leybnits şəhərində Avropa kuboku yarışında təmsilçimiz Rəşxan Baxşəliyev üçüncü olub. May ayında Rusiyanın Orenburq şəhərində keçirilən Avropa kubokunda 60 kq çəki dərəcəsində tatamiyə çıxan Mehman Sadıqov bütün rəqiblərinə qalib gələrək qızıl medalla təltif olunub. Bundan bir ay əvvəl, yəni aprel ayında Rusiyanın Sankt-Peterburq şəhərində keçirilən Avropa kubokunda isə Rövşən Əliyev (55 kq) çempion olub. Fevralda “Sərhədçi” Olimpiya-İdman Kompleksində 21 yaşlı cüdoçular arasında keçirilən Respublika birinciliyində “Qəbələ”komandası ümumilikdə 10 medalla üçüncü pillədə qərarlaşıb. Həmin ay Avstriyanın Obervat şəhərindəki Avropa açıq turnirində klubumuzun təmsilçiləri Mehman Sadıqov və Vüqar Şirinli müvafiq olaraq qızıl və bürünc medalla mükafatlanıblar. Bolqarıstanın paytaxtı Sofiyada təşkil olunan Avropa kubokunda “Qəbələ”nin təmsilçisi Uşangi Kokauri bürünc medalla vətənə qayıdıb. 2018-ci ildə əsas nailiyyətlərimiz bunlardan ibarətdir. Bizi qarşıda çox güclü yarışlar gözləyir. Sadaladığım hər bir qələbədə məşqçi-müəllim kollektivinin böyük rolu var. Düşünürəm ki, bu gedişlə biz gələcəkdə daha da böyük uğurlar qazana bilərik”, - deyə müsahibimiz əlavə etdi.

## Yetirmələr arasında məşqçilər də var

Artıq 28 ildir ki, uşaq, yeniyetmə və gənclərə cüdonun sirlərini öyrədən Telman Əhmədli məşqlərini “Ruslan” və “Hədəf” idman klublarında keçir. Həmin klubların hər birində təxminən 50-ə yaxın uşaq və yeniyetmə bu idman növünün sirlərinə yiyələnir. Ancaq onun yetirmələri beynəlxalq və respublikadaxili yarışlarda birbaşa olaraq “Qəbələ” idman klubunun adından çıxış edirlər. Bu illərdə Telman müəllim bir çox bacarıqlı idmançılar, ən mötəbər yarışların çempion və mükafatçılarını yetişdirib. Hətta onun sözlərinə görə adını çəkdiyimiz “Ruslan” idman klubunda, Telman müəllimin rəhbərliyi altında bacarıqlı məşqçi-müəllimlər də yetişib. “30 ilə yaxın bir müddət ərzində mənim ən böyük hədiyyəm bacarıqlı, öz işini bilən cüdoçular, hətta məşqçi-müəllimlər yetişdirmək olub. Buna görə Allaha şükür edirəm. Bu gün məşqçi kimi çalışan Əmrah Əhmədov və İmran İmranov mənim tələbələrim olublar. Qadınlardan ibarət yığma komandamızın üzvü Şəfəq Məmmədova da cüdoda ilk addımlarını mənim rəhbərliyim altında atıb. Belə idmançılar hər məşqçiyə qismət olmur. Mən onların hər biri ilə fəxr edirəm. Sağ olsunlar ki, birlikdə çəkdiyimiz zəhmətlərin bəhrəsini veriblər”, - deyə həmsöhbətimiz bildirdi.

## Fiziki hazırlıq birbaşa dözümlülüyə, iradəyə təminat verir

İdman mütəxəssisləri təsdiq edirlər ki, yarışlarda qələbə qazanmaq üçün əsas üç istiqamətdə - fiziki, texniki-taktiki və psixoloji cəhətdən hazırlaşmaq lazımdır. Əgər onların hər hansı birindəsə axsama hiss olunarsa, bu, idmançının çıxışına öz mənfi təsirini göstərəcək. Yəni üç cəhətdən də hazırlıq dərəcəsi yüksək səviyyədə olmalıdır. Telman müəllim də bu fikirdədir ki, fiziki, texniki-taktiki və psixoloji cəhətdən hazırlıq zəncir kimi bir-biri ilə bağlıdır, onların birini digərindən ayrı təsəvvür etmək olmaz. “Yaxşı idmançı olmaq hələ yaxşı məşqçi olmaq demək deyil. Yaxşı məşqçi o məşqçidir ki, tələbəsini həm fiziki, həm texniki-taktiki, həm də psixoloji cəhətdən hazırlaya, habelə onun mənfi cəhətlərini müəyyənləşdirib, aradan qaldırmağı bacarsın. Hər məşq idmançı həm fiziki, həm texniki-taktiki, həm də psixoloji hazırlığı artırmalı, ən azından bunun üçün çalışmalıdır. Bu istiqamətdə isə, şübhəsiz ki, məşqçi-müəllimin rolu danılmazdır. Məşqçilər bu məsələlərdə öz yetirmələrinə yol göstərməlidir. Yaxşı məşqçi idmançısını zirvəyə qaldıra bilən, hər an ona dayaq ola bilən məşqçidir. Bir çox təkmübarizlik idman növlərində olduğu kimi, cüdo da texniki-taktiki hazırlıq çox vacibdir. Əgər cüdoçu fəndi düzgün, dəqiq icra edə bilməsə heç cürə qalib gələ bilməz. Çünki bəzən fəndi icra edən idmançı adi bir səhvə, diqqətsizliyə görə hakim tərəfindən cəzalanır. Halbuki, o, “ippon”la təmiz qələbə qazana da bilərdi. Fiziki hazırlıq birbaşa dözümlülüyə, iradəyə təminat verir. Cüdoda görüş müddəti beş dəqiqədir. Bu, bir çoxları üçün az görünə bilər. Əslində isə heç də elə deyil. Ən güclü idmançılarda belə üçüncü, dördüncü dəqiqədən sonra yorğunluq hiss olunur. Sözsüz ki, bu, hər iki rəqibdə olur. Əsas odur ki, fiziki hazırlığın nəticəsində özünü toparlayıb rəqibdən daha üstün çıxış etməyi bacarasan.



Bu, çox vacibdir. Belə ki, bir çox idmançılar məhz passiv güləşdiklərinə, rəqibdən qaçdıqlarına görə cərimə xalı ilə uduzurlar. Elə cüdoçular var ki, onlarda texniki-taktiki və fiziki hazırlıq ən yüksək səviyyədə olur. Lakin məhz özünə inanmadıqlarına görə məğlub olurlar. Bu, birbaşa psixoloji amillə bağlıdır. Bu məsələdə idmançıya təkcə məşqçi yox, həm də valideynləri, yaxınları dəstək olmalıdırlar. Təcrübə göstərir ki, qrupdakı idmançılarda kollektiv şəkildə həm fiziki, həm də texniki-taktiki hazırlığı inkişaf etdirmək mümkündür. Ancaq psixoloji hazırlığın yüksəlməsi üçün yaxşı olar ki, məşqçi-müəllim hər bir yetirməsi ilə fərdi şəkildə məşğul olsun. Çünki hər uşaq, yeniyetmə və gəncin fərqli psixologiyası, qavrama metodları var. Məşqçi onların hər biri ilə öz dillərində danışmağı bacarmalıdır. Məsələn elə idmançı var ki, o, bir kobud sözlə həm məşqdən, həm də müəllimindən soyuyur. Lakin elələri də var ki, belə demək mümkünsə, onları ayıltmaq, məsələnin nə dərəcədə ciddi olduğunu başa salmaq üçün gərək müəyyən məqamlarda tələbkar olasan. Hər halda qeyd etdiyim kimi, idmançıda fiziki, texniki-taktiki və psixoloji hazırlıq vəhdət inkişaf etməlidir və bunlara xüsusilə hər yarışdan 3-4 gün əvvəl xüsusi diqqətlə yanaşılmalıdır”, - deyə Telman müəllim fikirlərini bölüşdü.

## “Bu hadisə mənə dərs oldu”

Təcrübəli cüdo mütəxəssisi ilə söhbət zamanı məlum oldu ki, onun yetirmələrindən biri-Nemət Yusifli bu il qəbul imtahanında 700 bal toplayaraq ən yüksək nəticəni əldə edib. Bu, şəxsən mənim üçün çox maraqlı oldu. Çünki adətən belə düşünürlər ki, idman və təhsil vəhdətdə inkişaf edə bilməz. Amma məşqçisinin sözlərinə görə Nemət uzun illərdir ki, cüdo ilə məşğul olur və ən nümunəvi idmançılardan biridir. “Neməti çoxdan tanıyıram. Uzun illərdir ki, onun məşqçisiyəm. Onun kimi tələbəm olduğu üçün fəxr edirəm. Təhsili ilə əlaqədar valideynləri bir müddət əvvəl onu məşqlərdən uzaqlaşdırdılar. Düzü, qarşı çıxmağa çalışdım və çox təəssüfləndim. Çünki Nemət artıq cüdoda öz yolunu seçmişdi və uğurla irəliləyirdi. Amma indi həmin hərəkətimə görə peşmanam. Bu gün Nemət abituriyentlər arasında ən yüksək bal yığan bir neçə yeniyetmədən biridir. İndi o, həm əvvəlki qaydada məşq edir, həm də sentyabr ayından etibarən ali məktəbdə təhsil alacaq. Bu hadisə mənə dərs oldu. Əvvəllər bəzi məqamlarda belə düşünürdüm ki, idman və təhsil bir-birlərinə mane olurlar. Ancaq elə deyilmiş. Əgər idmançı gününün iki saatını idmanla məşğul olsa, bu, heç də onun dərslərinə mane olmaz, əksinə, kömək olar” - deyə Telman müəllim qeyd etdi.

## “Elə bir sistem olsun ki...”

Bir çox idman növlərində olduğu kimi cüdo da qadın idmançılarımızın böyük uğurları var. Bu IV İslam Həmrəyliyi Oyunlarında da bir daha özünü göstərdi. Lakin qadın idmançılarımızın uğuru kişilər qədər çox deyil. Buna səbəb isə zərif cinsin nümayəndələri arasında kütləviliyin az olmasıdır. Müşahidələr göstərir ki, əksər hallarda valideynlər qızlarının idmanla məşğul olmalarına qarşı çıxırlar. Görəsən, bu nə qədər düzgündür? Sözügedən məsələ ilə bağlı təcrübəli məşqçinin fikirləri də birmənalı deyil. “Valideynlərin bu münasibətlərinə qarşı deyiləm. Onlara müəyyən qədər haqq verirəm. Bu, bizim mentalitetimizlə bağlıdır. Amma bu, o demək deyil ki, qızların idmanla məşğul olmalarının əleyhinəyəm. Yaxşı olar ki, bu məsələdə valideyn və övladlar ortaq qərara gəlsinlər. Əgər qız idmanda özünü doğruldursa, əlbəttə, ona mane olmaq düzgün deyil. Çox istərdim, elə bir sistem olsun ki, o, uşaq və yeniyetmələrin idmana uyğun olub olmadıqlarını və hansı idman növünə daha çox uyğun olduqlarını yoxlaya bilsin. Məsələn, o sistem göstərərsə ki, uşaq və yeniyetmənin fizioloji quruluşu üzgüçülük üçün daha münasibdir, onu sırf həvəs və digər amillərlə bağlı olaraq cüdo bölmələrinə yazdırmaq o qədər düzgün deyil. Bu, uşağın parlaq gələcəyini kölgə altına salmağa gətirib çıxarır. Yəni dediyim odur ki, uşağı bu və ya digər sahəyə kor-koranə yönəltmək olmaz. Mövcud şəraiti qiymətləndirmək və ən düzgün qərarı verməyə çalışmaq lazımdır. Necə deyərlər, yüz ölçüb, bir dəfə biçmək gərəkdir”, - deyə həmsöhbətimiz əlavə etdi.

Son vaxtlar cüdo idman növündə tez-tez qayda dəyişikliyi olur. Bu, idmançılar üçün müəyyən qədər çətinlik yaratsa da, Telman Əhmədli məşqçi-müəllim və təcrübəli hakim kimi qayda dəyişikliklərini məqsədəuyğun hesab edir. “Əslində qayda dəyişiklikləri təkcə cüdoda deyil, bütün idman növlərində öz əksini tapır. Bu, təsadüfi deyil. Günün nəbzini tutmaq, görüşləri daha maraqlı etmək üçündür. Gündəlik məişət həyatımızdan da görürük ki, insan eyni şeyə müəyyən müddət baxdıqdan sonra yorulur. Elə qayda dəyişikliklərinin əsas səbəbi də məhz bunun qarşısını almaqdır. Doğrudur, yeni qayda ilk vaxtlar idmançılar üçün çətinlik yaradır. Amma bu, bütün idmançılara şamil edilir. Yəni görüşdə qarşı-qarşıya gələn rəqiblər ikisi də çətinlik çəkirlər”, - deyə Qəbələ” klubunun məşqçisi bildirdi.

## “İdmançılar üçün ədalət ən ali insani hissdir”

İdman onunla dostluq edən hər bir şəxsdən dözümlülük, iradə tələb edir. Elə idmançılar var ki, elə ilk məğlubiyyətdən ruhdan düşərək idmanla məşğul olmağa “veto” qoyur, sanki zallardan küsürlər. Telman müəllimin idmanla yeni məşğul olanlara tövsiyələri də var. O, deyir ki, idmanla məşğul olmaq xüsusilə oğlanlar üşün çox vacibdir. “Bəzi insanlar elə düşünürlər ki, idmanla məşğul olmaq ancaq bədəni formaya salır, onları sadəcə özünümüdafiəyə hazırlayır. Ancaq bu, heç də belə deyil. İdman həm də insanda bir çox nəcib keyfiyyətlər aşılayır. Təsadüfi deyil ki, idmançıların əksəriyyəti həssas olurlar. İdmançılar üçün ədalət ən ali insani hissdir. İdmançılar arenada mübarizəni ədalətlə aparırlar. Bu mənada idmanla məşğul olmaq hamı, xüsusilə oğlanlar üçün çox vacibdir. Bu, onlara ömür boyu, o cümlədən ailədə, işdə, hərbi xidmətdə müxtəlif məqamlarda köməyinə çatacaq. Təcrübəmə əsasən deyə bilərəm ki, elə idmançılar olur ki, onlar 3-4 aydan sonra məşqlərdən uzaqlaşırlar. Əlbəttə, bu, səbəbsiz deyil. Bu kimi hallarda bir səbəb ya məşqçidə, ya da valideyndə olur. Çünki uşaq artıq ilk addımı atıb, zala gəlib. Ona görə də müəllimlərlə yanaşı valideynlər uşaq və yeniyetməni məşqə daha çox həvəsləndirmək üçün çalışmalıdırlar. İdmançı isə dözümlü və iradəli olmalıdır. Bir də görürsən, ilk yarışda uduzan idmançı düşünür ki, idman ona uyğun deyil. Halbuki əksər hallarda məşqçi idmançını ilk yarışa medal üçün yox, sadəcə onun potensialını yoxlamaq üçün çıxarır. Bunu başa düşmək lazımdır və mütləq idmançının bir məqsədi olmalıdır. Məsələn idmançı Olimpiya çempionu olmağı özünə məqsəd seçməlidir və bunun uğrunda səhər-axşam çalışmalı, necə deyərlər, zallardan çıxmamalıdır. Bu halda idmançı Olimpiya çempionu olmasa da, ən azı digər yüksək zirvələri fəth edəcək. Çünki Tanrı heç vaxt çəkilən zəhməti, tökülən tərləri nəticəsiz qoymur. İdmançıların üzərlərinə bir vəzifə düşür ki, məşqçilərinin tapşırıqlarını bəhanəsiz yerinə yetirsinlər və məşqlərə məsuliyyətlə yanaşsınlar” - deyə, Telman müəllim bildirdi.

Bir neçə aydan sonra Azərbaycanda cüdo üzrə dünya çempionatı keçiriləcək. Millimzin ən bacarıqlı idmançıları həmin yarışda ölkəmizi layiqincə təmsil etməyə çalışacaqlar. Telman müəllim tatami ustalarımıza inandığını desə də, onların hansı nəticələrə layiq görüləcəyi barədə dəqiq bir fikir söyləmədi: “Cüdoçularımızın bacarıqları, ustalıq səviyyələri ilə bağlı heç bir tərəddüdüm yoxdur. Ancaq təxmini də olsa proqnoz irəli sürmək üçün gərək yığma komandanın məşqlərində iştirak edəsən, cüdoçuların gündəlik məşq proseslərini izləyəsən. Mən yığma komanda da işləmədiyimə görə bu barədə bir fikir deyə bilmərəm. Buna baxmayaraq, yenə də qeyd etmək istəyirəm ki, cüdoçularımıza inanıram və onlara uğurlar arzu edirəm”.

Göründüyü kimi, 30 ilə yaxındır, cüdonun sirlərinin uşaq, yeniyetmə və gənclərə öyrədən, öz bilik və bacarıqlarını onlardan əsirgəməyən Telman Əhmədli də idmanın insan həyatındakı rolunu çox müsbət qiymətləndirir. Yaxşı olar ki, gənc nəsil sağlamlıqlarının qayğısına qalmaq və asudə vaxtlarının səmərəli keçirilməsi üçün idman zallarına üz tutsunlar. Bu, təkcə onların özləri üçün, həm də cəmiyyət və dövlət üçün faydalıdır. Unutmaq olmaz ki, bir fərdin sağlam olması bir ailənin, bir ailənin sağlam olması isə cəmiyyətin bir hissəsinin sağlam olması deməkdir.

***Kənan Novruzov***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

# DÜNYA İDMANI 1






## Transfer xəbərləri

Fransa millisinin əfsanəvi oyunçusu Tyerri Anri müstəqil şəkildə məşqçilik karyerasına başladığını elan edib. Tyerri Anri üç klubdan təklif alıb. Bu klublar Fransa millisinin keçmiş futbolçusuna baş məşqçi postunu həvalə edə bilərlər. Təkliflərdən biri İngiltərə klubu "Lester Siti"dən gəlib. Digər klublar barədə məlumat verilmir.

Anrinin hansı kluba üstünlük verəcəyi də, hələlik məlum deyil. Tyerri Anri ekspert kimi çalışdığı "Sky Sports" telekanalından ayrılıb. Tərəflər arasında 2020-ci ilədək müqavilə bağlanmasına baxmayaraq, Anri müqaviləni birtərəfli qaydada pozmaq qərarına gəlib.

Razılaşmaya əsasən, keçmiş futbolçu qarşıdakı iki ildə 11 milyon avro qazana bilərdi. Rusiyanın ev sahibliyi etdiyi dünya çempionatında Anri Belçika millisinin baş məşqçisi Roberto Martinesin köməkçisi idi.

Xatırladaq ki, Belçika millisi yarımfinal mərhələsində Fransa yığmasına məğlub olub (1:0). Mundialda üçüncü yer uğrunda mübarizəsində isə belçikalılar İngiltərə millisinin qapısına iki cavabsız top keçiriblər.

* * *

Azərbaycan Premyer Liqasının debütantı "Sabah" klubu serbiyalı müdafiəçi Filip İvanoviçlə üçillik müqavilə bağlayıb.

Müdafiəçi Bakı təmsilçisinin heyətində 13 nömrəli formada çıxış edəcək. İyirmi altı yaşlı futbolçu karyerası ərzində Serbiyanın "Hayduk", "Zvezdara", "Lokomotiva", "Bezaniya", "Petrovaç", "İndjiya" klublarında top qovub. Onun son çıxış etdiyi komanda "Radnik" (Serbiya) olub.

* * *

İngiltərənin "Mançester Yunayted" klubu İtaliyanın "İnter" və Almaniyanın "Ayntraxt" klubunun oyunçularını transfer etmək niyyətindədir. Söhbət Ante Rebiç və İvan Perişiçdən gedir.

"Mançester Yunayted" klubunun baş məşqçisi Joze Mourinyo dünya çempionatından sonra hər iki oyunçunun mundialı yüksək səviyyədə keçirdiyi üçün heyətə qatmaq qərarına gəlib.



Hər iki futbolçuya görə, "Mançester Yunayted" 104 milyon avro ödəməyə hazırdır. "Transfermarkt" Perişiçi 45 milyon, Rebiçi isə 30 milyon dəyərləndirir.

Rusiyada keçirilən dünya çempionatında İvan Perişiç 3 qolla, Ante Rebiç isə 1 qol və 2 məhsuldar ötürmə ilə yadda qalıb.

"Mançester Yunayted"in müdafiəçisi Deyli Blind karyerasını "Ayaks"da davam etdirəcək. İngiltərə mətbuatı bu transfer üçün "Ayaks"ın 14 milyon avro təzminat ödəyəcəyini və futbolçu ilə 4 illik müqavilə imzalayacağını yazıb.

Qeyd edək ki, Blind 2014-cü ildə məhz "Ayaks"dan "Mançester Yunayted"ə transfer olunub.

* * *

İngiltərənin "Mançester Siti" komandası İtaliyanın "Yuventus" klubunun futbolçusunu transfer etmək istəyir.

İngilislər "qoca senyora"nın şərəfin qoruyan Miralem Pyaniç üçün 50 milyon avroluq təklif göndəriblər. Amma "Yuventus" bu təklifi qəbul etməyib. Turin klubu bosniyalı futbolçunu daha yüksək məbləğə satmağa ümid edir.

İyirmi səkkiz yaşlı yarımmüdafiəçi "Yuventus"a 2016-cı ildə 32 milyon avro qarşılığında "Roma"dan transfer edilib.

Qeyd edək ki, "Mançester Siti" daha öncə "Lester Siti"dən Riyad Mahrezi 60 milyon funt sterlinqə öz heyətinə qatıb.

* * *

İspaniyanın "Real" klubu xeyli müddətdir gəzən şayiələrə son qoyub. Madrid təmsilçisi Braziliya millisi və PSJ-nin futbolçusu Neymarı transfer edəcəklərinə dair xəbərləri təkzib edib.




"PSJ-nin futbolçusu Neymar və klubumuzla bağlı şayiə dolu xəbərlərin çoxluğunu nəzərə alaraq, "Real Madrid" klubunun rəhbərliyi məsələyə aydınlıq gətirərək bəyan edir ki, adı çəkilən oyunçunun transferi ilə heç bir təklif irəli sürməyi planlaşdırılmır. "Real Madrid" və PSJ arasında yaxşı münasibətlər var. Bu səbəbdən də oyunçunu transfer etmək istəsək, ilk növbədə onun klubuna müraciət edərik", - deyə klubun prezidenti Florentino Peres bildirib.

Son günlərdə "Real Madrid"in 26 yaşlı "sambaçı"nın transferi üçün əlindən gələni etdiyinə dair xəbərlər dolaşırdı. Hətta Madrid klubunun prezidenti Florentino Peresin Neymarın atası (eyni zamanda meneceri) ilə görüşdüyü də iddia edilirdi.




## Yığmaların yeni reytinq cədvəli açıqlandı

FİBA yığma komandaların yeni reytinq cədvəlini açıqlayıb. İlk 16 pilləda heç bir dəyişiklik olmayıb. Reytinq cədvəlinin zirvəsində aktivində 748.13 xalı olan ABŞ var. İkinci sırada İspaniya (706.68) qərarlaşıb. Üçüncü pillədə isə Fransa (647.67) yer alıb. "İlk iyirmilik"də sadəcə Türkiyə (17/+1) və Dominikan Respublikası (18/-1) yerlərini dəyişiblər.

"İlk onluq":

1. ABŞ - 748.13 xal
2. İspaniya - 706.68
3. Fransa - 647.67
4. Serbiya - 643.62
5. Argentina - 621.96
6. Litva - 619.04
7. Sloveniya - 588.58
8. Xorvatiya - 566.12
9. Yunanıstan - 545.54
10. Avstraliya - 466.42

Formula-1 yarışlarında 2018-ci il mövsümü başa çatandan sonra "Ferrari" komandasının finlandiyalı pilotu Kimi Raykkonenin İtaliya komandasını tərk edərək Amerikanın "Haas" kollektivinə keçəcəyi gözlənilir.

## Raykkonen karyerasını "Haas"da davam etdirəcək



2007-ci ilin çempionu olmuş Raykkonen öz yerini "Zauber"də debüt mövsümü keçirən monakolu Şarl Leklerə verəcək. Həmin nəşrin ehtimalına görə, finlandiyalı yürüşçü "Ferrari" ilə sıx əməkdaşlıq edən "Haas"ın heyətində fransalı pilot Roman Qrojanı əvəz edəcək. Qeyd edək ki, 2018-ci il çempionatı Qrojan üçün uğursuz keçir.

## Uimbldon turnirinə yekun vurulub

London şəhərində qadın və kişi tennisçilərin iştirakı ilə keçirilən "Böyük dəbilqə" seriyasından Uimbldon turnirinə yekun vurulub. İyunun 25-dən iyulun 15-dək təşkil edilən yarışların mükafat fondu 34 milyon funt-sterling təşkil edib.

Tennisçilər ot üzərində açıq kortda yarışıblar. Yarışların qalibi adını kişilər arasında Novak Cokoviç, qadınlar arasında isə Anjelika Kerber qazanıb.

Titullu idmançı Novak Cokoviç finalda Kevin Andersona 6:2, 6:2 və 7:6 hesabı ilə qalib gələrək tunrinin qalibi adına layiq görülüb. Bu, məşhur tennisçinin Uimbldon turniri tarixində 4-cü, "Böyük dəbilqə" seriyasından isə 13-cü qələbəsidir.

Qadınlar arasında Uimbldon turnirinin qalibi isə Almaniya təmsilçisi Anjelika Kerber olub. 30 yaşlı tennisçi Rio-2016 Olimpiadasının gümüş medalçısı, eləcə də, Avstraliya və ABŞ Açıq Çempionatlarının qalibidir.

## Ante Rebiç həmkəndlilərinin kredit borcunu ödədi

Xorvatiya millisinin futbolçusu Ante Rebiç kəndlərində yaşayan 500 nəfərin kredit borcunu bağlayıb.

Ante Rebiç Split şəhərindən bir qədər kənarda yerləşən kiçik kənddə doğulub. Maraqlıdır ki, 24 yaşlı futbolçu öz kökünə, elinə-obasına hər zaman bağlı olub. Kənd əhalisinin kredit borcunu ödəməsi də buna gözəl sübutdur.

Məlumat üçün bildirək, DÇ-2018-də gözəl, əzmkar oyun nümayiş etdirən Xorvatiya millisi finalda yalnız Fransa yığmasına uduzaraq mundialın gümüş medalına sahib olub.

"Mançester Yunayted"in çalışdırıcısı Joze Mourinyonun diqqətini cəlb edən Ante Rebiç üçün klub 92 milyon funt sterlinq ödəməyə hazırdır.

## Ən çox gəlir qazanan idmançılar

Məşhur "Forbes" jurnalının versiyasına görə, "Barselona"nın hücumçusu Lionel Messi və "Yuventus"un forvardı Kriştanu Ronaldonun adları yüksək qazanc götürən idmançıların siyahısına daxil edilib.

Qeyd edək ki, siyahıya tanınmış boksçu, kiçik Floyd Meyvezer liderlik edir. Floyd Meyvezer Mak Qreqorla döyüşdən 275 milyon dollar gəlir əldə edib. Onun qazancı 285 milyon dollardır. Meyvezerdən sonra 2-ci yeri Corc Kluni (239 milyon) tutur. Kayli Cenner isə 3-cü (166,5 milyon) yerdə qərarlaşıb. Siyahıda 8-ci yeri tutan Lionel Messinin gəliri 111 milyon avro təşkil edir. Ondan 1 pillə geri qalan Kriştanu Ronaldonun gəliri isə 108 milyon avrodur.

---

Milli Olimpiya Komitəsinin kollektivi MOK-un vitse-prezidenti Xəzər İsayevə, qardaşı

**Sadiq Ağəli oğlu İsayevin**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Gənclər və İdman Nazirliyinin kollektivi Milli Olimpiya Komitəsinin vitse-prezidenti Xəzər İsayevə, qardaşı

**Sadiq Ağəli oğlu İsayevin**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Dövlət Gömrük Komitəsi İdman Sağlamlıq Mərkəzinin kollektivi Milli Olimpiya Komitəsinin vitse-prezidenti Xəzər İsayevə, qardaşı

**Sadiq Ağəli oğlu İsayevin**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının kollektivi Milli Olimpiya Komitəsinin vitse-prezidenti Xəzər İsayevə, qardaşı

**Sadiq Ağəli oğlu İsayevin**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Fazil Hadıbəyov, Cəfər Hümbətov, Rasim Muradov və Hicran Şərifov Milli Olimpiya Komitəsinin vitse-prezidenti Xəzər İsayevə, qardaşı

**Sadiq Ağəli oğlu İsayevin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

"Olimpiya dünyası" qəzetinin kollektivi Milli Olimpiya Komitəsinin vitse-prezidenti Xəzər İsayevə, qardaşı

**Sadiq Ağəli oğlu İsayevin**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir. Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-90-54; 564-74-19